

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 218 (5938) **26 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Sumqayıt hadisəsi - ermənilərin məkrli planı




**Mehriban Əliyeva: "Moskva ilə Bakının münasibətləri nümunəvi xarakter daşıyır"**



3

**Nüfuzlu "Rossiyskaya qazeta" nəşrində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın müsahibəsi dərc olunub**



7

**Akademik Arif Paşayev Xarkov Aviasiya İnstitutunun fəxri adları ilə təltif edilib**



11

**Şimali Osetiya-Alaniyada Böyük Vətən müharibəsində canlarından keçmiş azərbaycanlıların xatirəsinin anım mərasimi olub**



9

**Şimali Osetiya-Alaniya Müsəlmanları Ruhani İdarəsinin 25 illiyinə həsr olunan tədbir keçirilib**



11

**Əli Əhmədov: Hikkə və ambisiya Əli İnsanova həqiqəti dərk etməyə ciddi mane olur**



12

13

**"91-lər"in bir qrup üzvü ölkə Prezidenti İlham Əliyevə müraciət ünvanlayıb**



14

**XİN: N.Paşinyanın "Corriere della Sera" qəzetinə müsahibəsini növbəti populist açıqlama kimi qiymətləndirmək olar**



14

**Dövlət sərhədindən buraxılış məntəqələrindəki mövcud vəziyyətlə əlaqədar xidməti müşavirə keçirilib**

# Sumqayıt hadisəsi - ermənilərin məkrli planı

***Məlum olduğu kimi, bu günlərdə Prezident İlham Əliyevin Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr olunmuş mərasimdə çıxışı zamanı bir çox məqamlara toxunaraq, 70 il ərzində gənclər şəhəri adlanan Sumqayıtın tarixi, inkişaf yolu keçdiyini, xüsusilə də, 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra, bu şəhərə ən böyük qayğı göstərildiyini vurğulayıb. Dövlət başçısı, xüsusilə, onu da bildirib ki, bu qayğı 1982-ci ildə Ulu Öndərin Moskvaya getməsi ilə Sumqayıtın tənəzzül dövrü başladı.***




## Prezident İlham Əliyev: "Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi"

### "Əgər Heydər Əliyev 1982-ci ildən sonra Moskvaya getməsəydi və Azərbaycanda qalsaydı, bəlkə də 10 il ərzində, artıq orada azərbaycanlı əhali 50 faizə çatacaqdı"

Ulu Öndərin Moskvaya getməsi ilə, Azrbaycanın hər yerində olduğu kimi, Sumqayıtda da tənəzzül dövrü başladı. Dövlət başçısı çıxışında, bu məqamlara toxunaraq bildirib ki, bütün bunlar Sovet İttifaqında dırnaqarası yenidənqurma siyasətinin ağır nəticələri idi: "1982-ci ildə Ulu Öndər Heydər Əliyev Moskvaya gedəndən sonra, Azərbaycanın hər bir yerində olduğu kimi, Sumqayıtda da tənəzzül dövrü başlamışdır. O vaxtkı respublika rəhbərliyi öz məsuliyyətini tam dərk etmirdi, proseslərə nəzarət etmirdi və bunun nəticəsində, Azərbaycanda inkişaf demək olar ki, getmirdi, durğunluq dövrü başlamışdı. Heydər Əliyev Siyasi Büronun üzvü və Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini kimi Azərbaycana daim kömək və diqqət göstərirdi, buna baxmayaraq, respublikada işlər tənəzzülə uğrayırdı. Xüsusilə, 1985-ci ildən sonra Sovet İttifaqında dırnaqarası yenidənqurma dövrü başlamışdı. Həm Sovet İttifaqında çox mənfi proseslər getməyə başlamışdı, o cümlədən, Azərbaycanda. Təsadüfi deyil ki, dırnaqarası yenidənqurma siyasəti başlanandan 6 il sonra Sovet İttifaqı kimi nəhəng dövlət çökdü".

Dövlət başçısı 1985-ci ildə Sovet İttifaqının yenidənqurma siyasəti nəticəsində, Azərbaycanın böyük çətinliklərlə üzləşdiyini vurğulayıb: "1985-ci ildə Azərbaycan da böyük çətinliklərlə üzləşmişdi. Çünki həm iqtisadi sahədə durğunluq hökm sürürdü, eyni zamanda, erməni millətçiləri baş qaldırmışdı, həm Dağlıq Qarabağda, həm də respublikamızın digər yerlərində, o cümlədən, Sumqayıtda. Ulu Öndər Heydər Əliyevin dövründə Dağlıq Qarabağda azərbaycanlı əhalinin faiz nisbəti kəskin artmışdır, 2 dəfə artmışdır və azərbaycanlı əhali 30 faizə çatmışdır. Əgər Heydər Əliyev 1982-ci ildən sonra Moskvaya getməsəydi və Azərbaycanda qalsaydı, bəlkə də 10 il ərzində, artıq orada azərbaycanlı əhali 50 faizə çatacaqdı. Dağlıq Qarabağda erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb, Ermənistana vermək haqqında məsələ qaldırırdılar".

### "Azərbaycan Respublikasının rəhbərliyi bu məsələyə çox biganə yanaşırdı, öz məsuliyyətini dərk etmirdi və beləliklə, vəziyyəti nəzarətdən buraxmışdı"

Prezident İlham Əliyev çıxışı zamanı 1985-ci ildən sonra Sovet İttifaqında milli siyasət sahəsində çox kobud səhvlərə yol verildiyini bildirmiş və eyni zamanda, Azərbaycanın o dövrdəki rəhbərliyi də milli siyasət məsələsinə biganə və məsuliyyətsiz yanaşırda: "Əfsuslar olsun ki, Azərbaycan Respublikasının rəhbərliyi bu məsələyə çox biganə yanaşırdı, öz məsuliyyətini dərk etmirdi və beləliklə, vəziyyəti nəzarətdən buraxmışdı. Eyni zamanda, erməni millətçiləri Sumqayıtda da yuva qura bilmişdilər və burada xoşagəlməz proseslərə, artıq təkan verilmişdi".

"1985-ci ildən sonra Sovet İttifaqında milli siyasət sahəsində çox kobud səhvlər buraxılmışdır" deyən dövlət başçısı, xüsusilə, vurğulayıb ki, Sovet İttifaqını böyük, çoxmillətli ölkə kimi ayaqda saxlayan milli siyasət idi: "Müttəfiq respublikalarda yerli milli kadrların qabağa çəkilməsi adi təcrübə idi. 1985-ci ildən sonra bu sahəyə böyük zərbə vuruldu. Biz yaxşı xatırlayırıq ki, o vaxt, xüsusilə, müsəlman respublikalarına münasibət çox mənfi idi. Müsəlman respublikalarının rəhbərlərinə qarşı qarayaxma kampaniyaları aparılırdı. Ümumittifaq mətbuatında bu respublikalar haqqında ancaq mənfi materiallar dərc edilirdi. Bu respublikalara mərkəzdən istintaq qrupları göndərilmişdi və elə bir rəy yaradılmışdı ki, Orta Asiya respublikalarında və Azərbaycanda vəziyyət bərbaddır, vəziyyət kritik həddə çatıb və o respublikaları idarə edənlər vəzifə borcunu yerinə yetirə bilmirlər. Əlbəttə ki, hər bir respublikada pozuntular da, nöqsanlar da olmuşdur, ancaq digər respublikalarda da bunlar var idi. Nə üçün bu istintaq qrupları Ermənistana, Gürcüstana, Ukraynaya, Moldovaya və digər respublikalara göndərilmirdi? Ancaq Orta Asiya respublikalarına və Azərbaycana göndərilirdi. Beləliklə, Sovet İttifaqının təməl sütunu olan milli siyasət artıq deformasiyaya uğramışdır".

### "1987-ci ildə Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra Azərbaycan hədəf seçildi"

Prezident İlham Əliyev, xüsusilə, çıxışı zamanı separatçıların cəfəng fikirlərə ictimai rəyə təsir etməsinə imkan verildiyi məsələsinə də toxunaraq bildirib ki, bununla da, azərbaycanlılara qarşı açıq-aydın etnik ayrı-seçkilik toxumları səpirdilər: "O vaxt biz yaxşı xatırlayırıq ki, erməni millətçiləri, o cümlədən, cəllad Balayan, Kaputikyan və digərləri azərbaycanlılara qarşı açıq-aydın etnik ayrı-seçkilik toxumları səpirdilər. Ümumittifaq mətbuatında bu barədə açıq söhbət gedirdi və ümumiyyətlə, Azərbaycana qarşı ədalətsiz münasibət göstərilirdi. Bütün bunlar 1987-ci ildən sonra baş vermişdir. Çünki 1987-ci ildə Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra Azərbaycan hədəf seçildi. O dövrü təhlil edərkən, bir daha görürük ki, bütün bu hadisələr erməni millətçilərinin və onların havadarlarının məkrli planının bir hissəsi idi. Baxın, 1985-ci ildən sonra Heydər Əliyev Qorbaçovun yarıtmaz siyasətinə qarşı açıq şəkildə çıxış etmişdi, buna görə ona qarşı kampaniya başlamışdı, həm mərkəzi mətbuat orqanlarında, həm də ki, Azərbaycanda. Burada da milli satqınlar mərkəzə donoslar yazmağa başlamışdılar. 1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb, Ermənistana vermək haqqında beynəlxalq mətbuatda və sovet mətbuatında məsələ qaldırmışdılar. Artıq Dağlıq Qarabağda separatçı meyillərə elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş vermişdir. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi. Plan ondan ibarət idi ki, Heydər Əliyev hakimiyyətdən getsin. Çünki Onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar. Onlar belə cəhdlər edirdilər, amma Heydər Əliyev bunun qarşısını layiqincə alırdı. Yəni plan Onu vəzifədən uzaqlaşdırmaq və bu məqsədlə buradakı yerli satqınlar, xainlər vasitəsilə donos göndərmək, erməni millətçiləri tərəfindən məsələ qaldırmaq idi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qala bilməz. Beləliklə, iğtişaş törətmək, hansı ki Sumqayıtda baş verdi və ondan sonra məsələ qaldırmaq ki, ermənilər Azərbaycanın tərkibində təhlükəsiz şəkildə yaşaya bilmirlər. Buna görə də, Dağlıq Qarabağ Azərbaycandan ayrılıb, Ermənistana birləşdirilməlidir. Bax, plan bundan ibarət idi və əfsuslar olsun ki, bu plan həyata keçdi".

**RƏFİQƏ KAMALQIZI**

# Mehriban Əliyeva: "Moskva ilə Bakının münasibətləri nümunəvi xarakter daşıyır"

## Azərbaycanın Birinci vitse-prezidentinin TASS agentliyinə, "Rossiyskaya qazeta"ya və "Rossiya-24" telekanalına müsahibəsi



**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 21-24-də Rusiyada rəsmi səfərdə olub. O, Prezident Vladimir Putin ilə görüşüb. Vladimir Putin onu iki ölkənin münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edib. Bundan əlavə, Mehriban Əliyeva Rusiya Hökumətinin başçısı Dmitri Medvedev və Federasiya Şurasının sədri Valentina Matviyenko ilə də görüşüb. Mehriban Əliyeva səfər müddətində Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin bərpa olunmuş "Azərbaycan" pavilyonunun açılışında iştirak edib.**

Birinci vitse-prezident TASS agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusmana TASS, "Rossiyskaya qazeta" və "Rossiya-24" telekanalı üçün müsahibəsində səfərinin yekunları barədə danışıb. AZƏRTAC müsahibəni təqdim edir.

***-Hər vaxtınız xeyir, Mehriban xanım. Sizinlə görüşmək imkanına görə çox sağ olun. Sizin Moskvaya, Rusiyanın paytaxtına rəsmi səfəriniz başa çatır. Səfərinizin proqramı son dərəcə zəngin olub, çoxlu görüşlər, o cümlədən Rusiyanın rəhbərliyi ilə görüşlər keçirmisiniz. Səfərin yekunlarını necə qiymətləndirirsiniz? Bu günlər ərzində Moskvada Sizin üçün ən çox yadda qalan nə olub?***

-Hər vaxtınız xeyir, hörmətli Mixail Solomonoviç. Sizi görməyimə çox şadam. Yenidən Moskvada olmağıma çox şadam. Mən, ilk növbədə, Rusiya Federasiyasına rəsmi səfərə dəvətə, səmimi qəbula, maraqlı görüşlərə və danışıqlara görə Rusiya Federasiyasının rəhbərliyinə, Prezident Vladimir Vladimiroviç Putinə, Hökumətin başçısı Dmitri Anatolyeviç Medvedevə, Federasiya Şurasının sədri Valentina İvanovna Matviyenkoya dərin minnətdarlığımı bildirmək istəyirəm.

Ölkələrimizi möhkəm dostluq və mehriban qonşuluq ənənələri bağlayır. Bu gün biz Azərbaycan-Rusiya münasibətlərini strateji tərəfdaşlıq kimi səciyyələndiririk. Hesab edirəm ki, hazırda ölkələrimiz arasında münasibətlər öz tarixi ərzində ən yüksək səviyyədədir.

Fəal siyasi dialoq mövcuddur, Azərbaycan və Rusiya prezidentləri arasında mütəmadi görüşlər bizim münasibətlərin çoxvektorluluğunu təyin edir və demək olar ki, bütün sahələrdə qarşılıqlı əlaqələrin inkişafına təkan verir.

Qeyd etdiyim kimi, Azərbaycan ilə Rusiyanı qədim və möhkəm dostluq, mehriban qonşuluq ənənələri bağlayır, ölkələrimiz dinamik inkişaf edir. Bu, dövlətlərarası əlaqələrin genişlənməsi üçün yeni imkanlar yaradır. Siz qeyd etdiyiniz kimi, mənim səfərim dolğun, maraqlı oldu. Əlbəttə, ilk növbədə, Rusiya Federasiyasının Prezidenti, hörmətli Vladimir Vladimiroviç Putin ilə görüşümü qeyd etmək istəyirəm. Bu, bizim ikitərəfli münasibətlərin bir çox aspektlərini müzakirə etmək üçün gözəl fürsət idi. Bu görüş zamanı Rusiya Federasiyasının Prezidenti mənə "Dostluq" ordenini təqdim etdi. Bu mükafatı almaq mənim üçün böyük şərəfdir, mən onu Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyəsinin daha bir təsdiqi kimi qiymətləndirirəm. Əlbəttə, şadam ki, bizim strateji tərəfdaşlığımızın inkişafı işində mənim də müəyyən töhfəm var.

***-Mehriban xanım, Siz tamamilə haqlı olaraq dediniz ki, Rusiya ilə Azərbaycanın münasibətləri həqiqətən heç vaxt indiki qədər sıx olmayıb və bu münasibətlərin kökləri doğrudan da uzaq keçmişə gedib çıxır. Lakin digər tərəfdən, bugünkü münasibətlərə görə biz, əlbəttə, ilk növbədə, - bunu Siz də qeyd etdiniz, - ölkələrimizin liderlərinin, Prezident Vladimir Vladimiroviç Putinin və Prezident İlham Heydər oğlu Əliyevin sıx qarşılıqlı əlaqələrinə borcluyuq. Onlar bu əlaqələri daha da möhkəmləndirirlər. Bununla belə, - Siz çoxvektorluluq barədə danışdınız, - Sizin fikrinizcə, bizim əməkdaşlığımız hansı sahələrdə daha perspektivlidir? Hansı sahələrdə bu əməkdaşlıq daha real bəhrələr verir və harada, ola bilsin, Sizin fikrinizcə, hələ reallaşdırılmamış potensial var?***

-Qeyd etdiyim kimi, Rusiya-Azərbaycan münasibətləri çox geniş spektri əhatə edir. Buraya iqtisadi blok, humanitar sahədə qarşılıqlı fəaliyyət daxildir. Azərbaycan və Rusiya beynəlxalq arenada bir-birini dəstəkləyir. İqtisadi sahəyə, bu sahədə qarşılıqlı əlaqələrə nəzər salsaq, burada uğurlu qarşılıqlı fəaliyyət artıq öz bəhrələrini verir. Rusiya Azərbaycanın ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalına görə birinci yeri tutur. Sevindirici haldır ki, ölkələrimiz arasında əmtəə dövriyyəsinin durmadan artması müşahidə olunur. Ötən il Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi 19 faiz artaraq 2,6 milyard dollara bərabər olub. Cari ilin doqquz ayı ərzində bu göstəricinin artıq 26 faizə çatması müşahidə olunur, qarşılıqlı sərmayə qoyuluşu göstəriciləri də yaxşıdır. Rusiyanın Azərbaycanda sərmayə qoyuluşunun həcmi 4,9 milyard dollardır. Azərbaycan Rusiya iqtisadiyyatına 1,2 milyard dollar investisiya yatırıb. Çox sevindirici haldır ki, son vaxtlar neft sektorunda ənənəvi qarşılıqlı fəaliyyətlə bərabər, qeyri-neft sektorunda, maşınqayırma, istehsal avadanlığı, kimya sənayesi, əczaçılıq, energetika, nəqliyyat kimi sahələrdə çoxsaylı müştərək layihələr inkişaf etdirilir.

Konkret nümunələr kimi "SOCAR Polymer" müəssisəsinin, "Azərikimya" müəssisələrinin modernləşdirilməsi, "KamAZ" yük avtomobillərinin yığılması və istehsalı, "P-Farm" dərman preparatları zavodunun birinci növbəsinin tikintisini göstərə bilərəm.

Tranzit-nəqliyyat sistemi bizim qarşılıqlı fəaliyyətdə çox mühüm və perspektivli istiqamətdir. Burada Qərbi Avropa bazarlarını asiyalı istehlakçılarla birləşdirəcək "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin yaradılması ən mühüm müştərək layihələrdən biridir. Bu layihənin reallaşdırılması başlayandan bəri ötən il uzunluğu yeddi min kilometrdən çox olan bu marşrut üzrə yükdaşımaların həcmi səkkiz dəfə, cari ilin altı ayı ərzində isə 60 faiz artıb. Gələn il həmin layihə çərçivəsində Bakıdan Rusiya Federasiyası ilə sərhədə qədər yeni dördzolaqlı magistral yol istifadəyə veriləcək. Bu ilin sonuna qədər sərhədyanı Samur çayı üzərindən birgə tikilən körpünün inşası başa çatacaq və o, istifadəyə veriləcək.

***-Mehriban xanım, mənim bildiyimə görə, Siz Birinci vitse-prezident kimi humanitar, sosial və mədəni sahələrin inkişafına xüsusi diqqət yetirirsiniz. Bu sahələr Sizin ciddi maraq obyektinizdir. Mənim fikrimcə, bu da Rusiya-Azərbaycan əməkdaşlığının çox mühüm amilidir. Bu baxımdan, bizim qarşılıqlı münasibətlərimizin bu sahəsi necə inkişaf edir? Axı bu humanitar sahə bütün insanlara, mənəvi həyata, bizim, bir daha deyirəm, tarixi köklərimizə aiddir. Bu mənada, indi Siz nəyi daha vacib hesab edirsiniz?***

-Siz tamamilə düzgün vurğuladınız. Humanitar sfera, humanitar sahə dövlətlərarası münasibətlərdə belə adlandırıldığı kimi şəxsiyyətlərarası ünsiyyətdir. Bunu qeyd etməyə çox şadam ki, humanitar sahədə Azərbaycan-Rusiya münasibətləri nümunəvi xarakter daşıyır. Bizim paytaxtımızda Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə yaradılmış Beynəlxalq Humanitar Forum mütəmadi keçirilir. Azərbaycanda rus mədəniyyətinə və rus dilinə qayğıkeş və hörmətli münasibət hamıya məlumdur. Bizim ölkəmizdə 300-dən çox məktəbdə tədris rus dilində aparılır, hər il rus dili olimpiadası keçirilir, 14 dövlət ali məktəbində rus dili kafedraları və rus bölməsi fəaliyyət göstərir. Keçən il 130 mindən çox orta məktəb şagirdi və 25 mindən artıq ali məktəb tələbəsi rus dilində təhsil alıb.

Ardı Səh. 4

# Mehriban Əliyeva: "Moskva ilə Bakının münasibətləri nümunəvi xarakter daşıyır"

## Azərbaycanın Birinci vitse-prezidentinin TASS agentliyinə, "Rossiyskaya qazeta"ya və "Rossiya-24" telekanalına müsahibəsi

Əvvəli Səh. 3

Ali məktəblər arasında əməkdaşlıq da yüksək səviyyədədir. Azərbaycanda, bizim paytaxtda Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birlikdə icrasına başlanıb.

Azərbaycanda çoxminli rusdilli icma var, bu icma ölkəmizin ümumi inkişafına layiqli töhfə verir, çoxsaylı sərgilər keçirilir. Bu il Azərbaycanda Rusiya Mədəniyyəti Günləri keçirilib. Gələn il qarşılıqlı tədbir - Rusiyada Azərbaycan Mədəniyyəti Günləri keçirilməsi planlaşdırılır. Dediyim kimi, bu sahədə bizim münasibətlərimiz nümunəvidir. Bu, çox vacibdir, çünki bu sahə həqiqətən insanları, xalqları yaxınlaşdırır. Biz də bu ortaq humanitar məkanı qoruyub saxlamaqda maraqlıyıq.

***-Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyev dəfələrlə deyib, - biz bunu müxtəlif tribunlardan kifayət qədər tez-tez eşidirik, - təəssüf ki, bir sıra Avropa ölkələrində özünü doğrulda bilməmiş multikulturalizm Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir, üstəlik, bu gün Azərbaycanda onu real olaraq müşahidə edirik. Belə adlandırılan çoxkonfessiyalılıq da multikulturalizmlə qarşılıqlı bağlıdır. Lap yaxın vaxtlarda Bakıda Dünya dini liderlərinin ikinci Sammiti keçirildi. Həmin tədbirdə dünyanın ən müxtəlif dinlərinin nümayəndələri iştirak edirdilər. Onlar hamısı Azərbaycanda heyrətamiz çoxkonfessiyalılığı qeyd etdilər. Buna nəyin hesabına nail olursunuz? Bu, yalnız tarixi köklərdən irəli gəlir, yoxsa, bugünkü Azərbaycan iqtidarının məqsədyönlü fəaliyyətinin nəticəsidir? Bu baxımdan, Siz gələcək inkişafı necə görürsünüz?***

-Azərbaycan Respublikasının Prezidenti öz çıxışlarının birində qeyd edib ki, "multikulturalizm" sözü bizim leksikonumuzda yetərincə təzə sözdür, lakin bu sözün arxasında dayanan ənənələrin çoxəsrlik tarixi var. Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin qovuşuğunda yerləşir və sözsüz ki, bu, onun çoxəsrlik tolerantlıq və multikulturalizm mədəniyyətinə də təsir göstərir. Müxtəlif millətlərə, mədəniyyətlərə və dinlərə mənsub insanlar əsrlərboyu ölkəmizdə sülh, həmrəylik və dostluq şəraitində yaşayıblar və yaşayırlar, bu gün də bu ənənə dövlət siyasəti ilə dəstəklənir. Buna görə Azərbaycan bu gün beynəlxalq aləmdə artıq dinlərarası, millətlərarası, mədəniyyətlərarası dialoqun möhkəmlənməsinə yönəlmiş çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi tanınmış məkana çevrilib. Siz bu yaxınlarda bizim paytaxtda Dünya dini liderlərinin ikinci Sammitinin keçirilməsini qeyd etdiniz.

Siz tamamilə düzgün olaraq vurğuladınız ki, müasir dünyada, təəssüf ki, ümumi gərginlik artır. Biz irqçilik, ksenofobiya, islamofobiya, antisemitizm, millətlərarası və dinlərarası qarşıdurmanın qızışdırılmasında dindən istifadə edilməsi kimi təhlükəli meyillərin artmasının şahidləriyik. Bu gün bütün bu məsələlər ümumbəşəri əhəmiyyət kəsb edir və Azərbaycanda bu məsələlərin ən yüksək dövlət səviyyəsində qaldırılması, zənnimcə, təsadüfi deyil, ona görə ki, mənim dediyim kimi, Azərbaycanda qədim ənənələr var. Bununla bərabər, belə beynəlxalq tədbirlərdə səslənən bu cür ismarıcların bütün dünya ictimaiyyətinə çatdırılması vacibdir. Dünya dini liderlərinin ikinci Sammitində Moskvanın və bütün Rusiyanın patriarxı Kirill də iştirak və çıxış etdi. Hesab edirəm ki, onun bütün ismarıcları, müraciətləri bu gün aktualdır, bəlkə də həmişəkindən daha aktualdır, ona görə ki, dünyada bu təhlükəli hadisələrin artması meyli təəssüf doğurur. Mən əminəm ki, bu təhdidləri yalnız ümumi səylərlə, həm dövlət başçıları səviyyəsində, həm də adi vətəndaş cəmiyyəti arasında səylərlə dayandırmaq olar.

***-Mənim daha bir sualım var. Sizin Moskvada keçirdiyiniz çox mühüm görüşlər arasında, zənnimcə, bir görüş xüsusi fərqlənib və Rusiya mətbuatında geniş işıqlandırılıb. Mən əvvəllər Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi adlandırılan məkanda yeni "Azərbaycan" pavilyonunun açılışını nəzərdə tuturam. Bu pavilyonun da öz tarixi var və Siz açılışda bu barədə çox yaxşı danışdınız. Lakin mən bir məqama diqqət yetirdim ki, pavilyonun yenilənməsi, faktiki olaraq yenidən yaranması Sizin başçılıq etdiyiniz Heydər Əliyev Fondu ilə bağlıdır. Bu işdə çoxları, o cümlədən Moskvanın hakimiyyət orqanları, Moskva təşkilatları da iştirak ediblər, lakin mən belə başa düşürəm ki, bütün bunlara Sizin başçılıq etdiyiniz Heydər Əliyev Fondu himayədarlıq edib. Bununla əlaqədar mən sərginin ərazisində, digər tərəfdən moskvalılar üçün də tamamilə nadir məkana çevrilmiş pavilyon mövzusuna bir daha qayıtmaq istərdim və xahiş edərdim ki, Siz Fond barədə bir neçə kəlmə deyəsiniz. Çünki o, iri beynəlxalq ictimai humanitar xeyriyyə təşkilatlarından birinə çevrilib. Bu gün o, dünyada çox nüfuzlu humanitar təşkilat imicinə malikdir və bütün bu illər ərzində Fonda Siz başçılıq edirsiniz. Siz bu Fondun gələcək inkişafını, deyək ki, bu pavilyon prizmasından necə görürsünüz?***

-Mən, ilk növbədə, Rusiya Federasiyasının rəhbərliyinə, Moskva şəhəri hökumətinə Azərbaycan dövləti üçün Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin ərazisində milli "Azərbaycan" pavilyonumuzun bərpasında iştirak etmək imkanı yaratdıqlarına görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Çox şadam ki, bu əlamətdar hadisə mənim rəsmi səfərim çərçivəsində baş verdi. Bizim milli pavilyonun açılışında iştirak etməkdən qürur duyurdum. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi bu gün dünyanın ən iri sərgi mərkəzlərindən biridir. Hər il Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə çoxsaylı qonaqlar gəlir və Moskvanın bu memarlıq-mədəniyyət mərkəzinin tarixi həqiqətən çox maraqlıdır. Bizim "Azərbaycan" pavilyonu 1939-cu ildə inşa edilib, sonrakı illərdə başqa pavilyonlar kimi o da çoxsaylı dəyişikliklərə məruz qalıb. 1966-cı ildə pavilyon bütöv metal qutu ilə örtülüb, onun siması tamamilə dəyişib və o, öz funksional və milli identikliyini, demək olar ki, itirib. Bərpa işləri 2017-ci ildə başlandı. Təbii ki, bu, Azərbaycan dövlətinin qərarı idi və Heydər Əliyev Fondunun rəhbərliyi altında həyata keçirilirdi. Qeyd etməliyəm ki, Fondun komandası bu işə çox böyük qayğı və məsuliyyətlə yanaşıb, çünki pavilyonun ilkin simasını bərpa etmək, onun milli autentikliyini qaytarmaq məqsədi qarşıya qoyulmuşdu. Böyük işçi qrupu yaradıldı, həm Rusiyadan, həm də Azərbaycandan ən yaxşı mütəxəssislər cəlb edildi. Orijinal simanı bərpa etmək üçün hər inceliyə, hətta naxışlara da diqqət yetirilirdi. Əlbəttə, bizim bu gün gördüklərimiz çox sevindiricidir, əminəm ki, bu, hər bir azərbaycanlını sevindirir. Yenilənmiş "Azərbaycan" pavilyonu öz qapılarını Rusiya paytaxtının qonaqlarının da üzünə açır. Bununla bərabər o, ölkələrimiz arasında, xalqlarımız arasında, o cümlədən humanitar sahədə əlaqələrin möhkəmlənməsinə xidmət edəcək daha bir məkandır.

Fonda gəldikdə isə, Heydər Əliyev Fondu 2004-cü ildə yaradılıb. Onun fəaliyyətinin əsas istiqamətləri təhsilin, səhiyyənin, gənclərin, ölkəmizin əhalisinin ən imkansız təbəqələrinin dəstəklənməsi, o cümlədən qaçqınlara və məcburi köçkünlərə kömək kimi mühüm sahələrdir. Zənnimcə, belə desəm yanılmaram ki, Fond 15 illik fəaliyyəti ərzində həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda böyük hörmət qazanıb. Fondun əsas ideologiyası ondan ibarətdir ki, irimiqyaslı layihələri reallaşdırmaqla bərabər, bu illər ərzində ölkəmizdə Fondun xətti ilə həqiqətən çox işlər görülüb, yüzlərlə məktəb və uşaq bağçası tikilib, tarixi abidələr bərpa edilib, çoxsaylı tədbirlər təşkil edilib. Biz həmişə bir məqamı unutmamağa çalışırıq ki, bütün bu işlər ölkəmizdə insanların daha yaxşı yaşamasına yönəlib, biz konkret vətəndaşı görməyə və eşitməyə çalışırıq. Ona görə Fondun hamıya məlum olan, yaxşı işıqlandırılan işindən əlavə, bizim elan etmədiyimiz işlər də var. Yəni, bu gün Azərbaycanda vətəndaşlarımız bilirlər ki, onlar Fonda müraciət etdikdə mümkün olan hər cür kömək edilməsi üçün maksimum səy göstəriləcək. Mən fəxr edirəm ki, Fondda bu cür vətənpərvər, yaxşı təhsil görmüş, artıq müstəqil Azərbaycanda böyümüş gənclər komandası var və bizim uğurlarımız, əlbəttə ki, komanda şəklində işin uğurudur. Buna görə mənim fikrimcə, Heydər Əliyev Fondunun əsas nailiyyəti ondan ibarətdir ki, o, Azərbaycan xalqının bu cür hörmətini və sevgisini qazanıb.

***-Hörmətli Mehriban xanım, söhbət üçün Sizə təşəkkür etmək istəyirəm. Artıq Yeni il yaxınlaşır. Onu həm Azərbaycanda, həm də Rusiyada qeyd edəcəklər. Sizinlə sağollaşmağa çox təəssüflənəcəyəm, çünki Yeni ilə qədər bu sözləri eşidə biləcəyimizə əmin deyiləm. Ona görə sağollaşmaqdan əvvəl Sizdən xahiş etmək istərdim, qarşıdan gələn ildə rusiyalılara və öz həmvətənlərimizə arzularınızı bildirəsiniz.***

> Mən həm Rusiya xalqına, həm də Azərbaycan xalqına, ilk növbədə, əlbəttə, sülh arzulamaq istəyirəm. Dövlətlərimizin uğurlu inkişafını, onların qarşısında duran planların həyata keçməsini arzulamaq istəyirəm. Tamamilə adi insani istəklərimi - möhkəm cansağlığı, nurlu və xeyirli günlər arzulamaq istəyirəm. İstəyirəm ki, uğurlar kədərlərdən çox olsun. Kədər bizdən yan keçsin. İnsanlar müəyyən çətinliklərin öhdəsindən gəlmək üçün özündə qüvvə tapsınlar. Ona görə ki, həyatda çətinliklər, kədərli günlər də olur, amma istərdim ki, şad, parlaq, işıqlı günlər daha çox olsun.

-Mən həm Rusiya xalqına, həm də Azərbaycan xalqına, ilk növbədə, əlbəttə, sülh arzulamaq istəyirəm. Dövlətlərimizin uğurlu inkişafını, onların qarşısında duran planların həyata keçməsini arzulamaq istəyirəm. Tamamilə adi insani istəklərimi - möhkəm cansağlığı, nurlu və xeyirli günlər arzulamaq istəyirəm. İstəyirəm ki, uğurlar kədərlərdən çox olsun. Kədər bizdən yan keçsin. İnsanlar müəyyən çətinliklərin öhdəsindən gəlmək üçün özündə qüvvə tapsınlar. Ona görə ki, həyatda çətinliklər, kədərli günlər də olur, amma istərdim ki, şad, parlaq, işıqlı günlər daha çox olsun.

***-İcazə verin, bu arzularınıza görə Sizə təşəkkür edim və öz növbəmdə, Sizə də onları arzu edim. Sizə cansağlığı, uğurlar arzulayır, ən xoş diləklərimi bildirirəm. Çox sağ olun.***

-Sağ olun.

# Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulan "Azərbaycan" pavilyonunun açılış mərasimi olub

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib*



***Noyabrın 23-də Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan" pavilyonunun əsaslı bərpa və təmirdən sonra açılış mərasimi olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, mərasimdə Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko iştirak ediblər.***

Bu il əlamətdar yubileyini - 80 illiyini qeyd edən Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi hazırda yenə də izləyiciləri müxtəlif ölkələrin pavilyonları, özünəməxsus eksponatlar ilə heyrətə gətirir. Dünyanın 50 nəhəng sərgi mərkəzi sırasına daxil olan Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi ildə 30 milyon izləyici qəbul edir. Bu gündən isə Azərbaycanın da Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində öz evi var. Heydər Əliyev Fondunun dəstəyi ilə buradakı "Azərbaycan" pavilyonu əsaslı bərpa olunub.

Nadir sərgi şəhərciyi hesab olunan Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin incilərindən sayılan "Azərbaycan" pavilyonu 1939-cu ildə tikilib. Milli pavilyonumuzda bərpa işləri onun binasının tarixi görünüşü, memarlıq-etnik özünəməxsusluğu saxlanılmaqla həyata keçirilib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanı və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkonu Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin direktoru Sergey Şaqurov qarşıladı.

Birinci vitse-prezident Mehriban Əliyeva, Federasiya Şurasının sədri Valentina Matviyenko və Moskva şəhəri merinin müavini Natalya Serqunina "Azərbaycan" pavilyonunun rəmzi açılışını bildirən lenti kəsdilər.

Sonra pavilyonun yenidənqurmadan əvvəlki və təmir işləri aparılan zaman görüntüləri əks etdirən stendlə tanışlıq oldu.

Hazırda nadir memarlıq siması bərpa olunan milli pavilyon, həmçinin yeni məzmunla izləyicilərini qarşılayır. Burada yeddi zalda xalqımızın qədim tarixini, mədəniyyətini, ənənələrini əks etdirən eksponatlarla yanaşı, müstəqil Azərbaycanın tarixi, ölkəmizin iqtisadi-siyasi, humanitar sahələrdəki nailiyyətləri, turizm potensialı barədə məlumatlar əldə etmək mümkündür.



Bərpa zamanı ornamentlərlə bağlı iş onların əvvəlki qatlarının təmizlənməsi ilə başladı və ilkin hesab edilən rəng çoxsaylı qatların altından üzə çıxarıldı. Bir illik gərgin iş nəticəsində mərmər döşəmələr, sütunlar, divar və tavandakı naxışlar, kitabxana və oranjereya tamamilə bərpa olundu. İzləyiciləri sürprizlər də gözləyir. Belə ki, tapıntılardan biri bərpa işləri ilə məşğul olanları da təəccübləndirdi. Metal konstruksiyaların bərpası zamanı torpağa basdırılmış fəvvarə aşkar edildi. Onu çıxarıb bərpa etdilər və hazırda həmin fəvvarə Azərbaycan pavilyonunda qoyulub.



Daimi ekspozisiya zalında milli musiqi, xalçaçılıq, sənətkarlıq nümunələri sərgilənir. Həmçinin pavilyonda Azərbaycanın məşhur rəssamlarının əsərləri təqdim edilir. Pavilyonun ekspozisiya zalında, eyni zamanda, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, Azərbaycan-Rusiya əlaqələrinin genişlənməsində vacib rol oynamış ölkə ziyalıları barədə məlumatlar təqdim olunur. Burada ayrı-ayrı zallarda müxtəlif mövzularda mühazirə və konfransların keçirilməsi, musiqi proqramlarının, eləcə də turizm zonasında Azərbaycanın turizm imkanları barədə məlumatların təqdimatı nəzərdə tutulur.

"Ticarət evi" zonasında isə Azərbaycan istehsalı olan məhsullar təqdim edilir. Burada "Aznar", "Aspi Aqro" MMC, "Azersun Holding", "Şirvan Şərabları", "Gazelli Qrup", "Gilan" MMC, "İsmayıllı Şərab-2", "Balxurma" MMC, "Marandi" MMC, "Kənddən şəhərə" brendi, "Xurcun", "Viva" və digər yerli istehsalçıların məhsulları ilə tanış olmaq, eyni zamanda, milli suvenirlər əldə etmək mümkündür.

Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi "Ostankino" parkı ilə birləşdirildikdən sonra onun ümumi ərazisi 325 hektardan çoxdur. Burada memarlığın bir sıra şah əsərləri yer alıb, 49 obyekt, o cümlədən "Azərbaycan" pavilyonu mədəni irs nümunəsi kimi tanınıb. Kitabxana və oxu zalında müxtəlif kitablar, o cümlədən Heydər Əliyev Fondunun nəşrləri ilə tanış olmaq mümkündür.

Pavilyonun açılışı ərəfəsində Heydər Əliyev Fondu tərəfindən "Azərbaycan" pavilyonunun tarixini əks etdirən kitab nəşr olunub. Kitabda müxtəlif materiallar, arxiv fotoları əsasında "Azərbaycan" pavilyonunun tarixi, burada aparılan kompleks bərpa işlərinin xronikası təqdim edilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.

**Ardı Səh. 6**

# Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulan "Azərbaycan" pavilyonunun açılış mərasimi olub

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib*

Əvvəli Səh. 5

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə çıxış edib. Birinci vitse-prezident Mehriban Əliyeva öz çıxışında qeyd edib ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər qədim və möhkəm dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanır:

-Hörmətli Valentina İvanovna.

Hörmətli qonaqlar, əziz dostlar.

Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" milli pavilyonunun açılışında sizi ürəkdən salamlayıram. Sizin hamınızı yaxın vaxtlarda 80 yaşı tamam olmuş bu əfsanəvi sərgi məkanının yubileyi münasibətilə təbrik etmək istəyirəm.

İlk növbədə, hörmətli Valentina İvanovnaya bizim milli pavilyonun açılışında iştirak etdiyinə, ölkəmizə səmimi, mehriban münasibətinə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bugünkü tədbirdə iştirak edən rusiyalı qonaqlarımızın hamısını salamlamağa şadam. Öz həmvətənlərimizi də görməyə şadam.

Bu gün Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi nadir sərgi şəhəridir. O, dünyanın 50 ən iri sərgi şikliklərə məruz qalıb, yenidən qurulub. Məsələn, 1966-cı ildə bu nadir memarlıq binasının fasadı bütöv metal qutu ilə örtülüb, bu isə heç şübhəsiz, onun simasını tamamilə dəyişib. Bir sözlə, sonrakı illərdə pavilyon özünün memarlıq, funksional və milli identikliyini itirib. 2014-cü ildə Moskva şəhəri hökumətinin təşəbbüsü ilə keçmiş müttəfiq respublikalara öz milli pavilyonlarının bərpasında iştirak etmək təklif olunanda Azərbaycan bu xəbəri böyük coşqu ilə qəbul etdi və hazırlıq işlərindən sonra 2017-ci ildə bərpa işləri başlandı. Pavilyonda bərpa işləri Azərbaycan dövlətinin dəstəyi və Heydər Əliyev Fondunun rəhbərliyi ilə aparılıb. Bu binanın ilkin memarlıq-etnik simasını qaytarmaq məqsədi qarşıya qoyulmuşdu. Çox gərgin iş aparıldı, Azərbaycandan və Rusiyadan ən yaxşı mütəxəssislər, memarlar, rəssamlar, bərpaçılar, mədəniyyət tarixçiləri dəvət edildi. Bu gün nəticəni görürük. Bu binanın tamamilə bərpa olunmuş autentikliyini görürük. Şübhəsiz, bu cür gözəl nəticə komanda şəklində işin yekunudur. Bu gün mən bizim milli pavilyonun bərpası üçün səy göstərənlərin hamısına təşəkkürümü bildirmək istəyirəm.



dilinin öyrənilməsi tam həcmdə qorunub saxlanılıb. 338 məktəbdə tədris rus dilində aparılır, Azərbaycanın 14 dövlət ali məktəbində rusdilli bölmə var, 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi üzrə pilot layihəsi həyata keçirilir.

Ali təhsil səviyyəsində də uğurlu əməkdaşlıq edirik. Bizim paytaxtımızda Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə icrasına başlanıb. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır. Bizim tələbələrin Rusiyada təhsil almasının dəstəklənməsinə görə Rusiya hökumətinə təşəkkürümü





mərkəzi sırasına daxildir. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinə hər il 30 milyona yaxın qonaq gəlir. Əlbəttə, bu gün mən qürur hissi keçirirəm ki, Moskvanın bu tarixi memarlıq mərkəzində bərpadan sonra "Azərbaycan" milli pavilyonu açılır.

Pavilyon öz qapılarını bütün qonaqların üzünə açır. Bizim ölkəmizə milli pavilyonun bərpasında iştirak etmək imkanına görə Rusiya Federasiyasının rəhbərliyinə, Prezident Vladimir Vladimiroviç Putinə, Moskva şəhərinin hökumətinə, Moskvanın meri cənab Sobyaninə təşəkkürümü bildirmək istəyirəm.

"Azərbaycan" pavilyonu 1939-cu ildə məşhur Azərbaycan memarları Sadıq Dadaşov və Mikayıl Useynovun layihəsi üzrə yaradılıb. Sonrakı illərdə Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin ərazisindəki bir çox başqa pavilyonlar kimi bu pavilyon da çoxsaylı dəyi-

"Azərbaycan" pavilyonunun zahiri simasının bərpa olunması ilə bərabər, o, həm də yeni məzmun kəsb edib. Burada bizim pavilyonun qonaqları xalqımızın zəngin çoxəsrlik tarixi, mədəniyyəti, ənənələri ilə tanış ola, eyni zamanda, müasir müstəqil Azərbaycan haqqında, onun ictimai-siyasi, iqtisadi, humanitar sahələrdə uğurları barədə informasiya əldə edə bilərlər. Əlbəttə, şübhə etmirəm ki, gələcəkdə bu məkanda təşkil ediləcək tədbirlər, görüşlər, sərgilər Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə şərait yaradacaq.

Rusiya ilə Azərbaycan arasında münasibətlər qədim və möhkəm dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanır. Bu gün biz öz münasibətlərimizi strateji tərəfdaşlıq adlandırırıq. Fürsətdən istifadə edib, məni Rusiyaya rəsmi səfərə dəvət etdiyinə və məni "Dostluq" ordeni ilə təltif etdiyinə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinə təşəkkürümü bildirmək istəyirəm. Bu ordeni almaq mənim üçün böyük şərəfdir və mən bu mükafatı Rusiya-Azərbaycan dostluq münasibətlərinin daha bir təsdiqi kimi qəbul edirəm.

Bu gün ölkələrimiz arasında fəal siyasi dialoq mövcuddur. Dövlət başçıları səviyyəsində müntəzəm görüşlər bunu təsdiq edir. Azərbaycanın və Rusiya Federasiyasının prezidentləri arasında etimada əsaslanan dostluq münasibətləri demək olar ki, bütün sahələrdə bizim ikitərəfli əlaqələrin dinamik və intensiv inkişafını təyin edir. Bizim uğurlu iqtisadi əməkdaşlığımız öz bəhrələrini verir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalı üzrə isə birinci yeri tutur. Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi davamlı şəkildə artır. Keçən il bu göstərici 19 faiz artaraq 2,6 milyard ABŞ dollarına bərabər olub, cari ilin 9 ayı ərzində isə 26 faiz artım müşahidə olunur. Sevindirici haldır ki, qarşılıqlı investisiyaların həcmi artır. Rusiya Azərbaycana sərmayə yatırır. Azərbaycanda Rusiya investisiyalarının həcmi 4,9 milyard, o cümlədən qeyri-neft sektoruna sərmayə yatırımının həcmi 1 milyard dollardır. Azərbaycanın Rusiya iqtisadiyyatına investisiyaları 1,2 milyard dollar təşkil edir.

Rusiyadan Azərbaycana səfər edən turistlərin sayı durmadan artır. Keçən il 900 min rusiyalı bizim ölkəmizə səfər edib, cari ildə bu göstəricilərin artacağını gözləyirik.

Bizim ikitərəfli əlaqələrimizdə regionlararası əməkdaşlıq mühüm yer tutur. Azərbaycan Rusiya Federasiyasının 70-dən çox subyekti ilə həm iqtisadi, həm də humanitar sahədə əlaqələr qurub. Bu gün mənim səfərim çərçivəsində hörmətli Valentina İvanovna ilə birlikdə X yubiley Regionlararası Forumun açılışında iştirak edəcəyik.

Ölkələrimizi bir-birinə bağlayan humanitar əlaqələri xüsusi vurğulamaq istəyirəm. Bildiyiniz kimi, Azərbaycanda Rusiya mədəniyyətinə, rus dilinə dərin hörmətlə yanaşırlar. Ölkəmizdə rus bildirmək istəyirəm. Azərbaycanda çoxminli rus icması ölkəmizin ümumi inkişafına layiqli töhfə verir. Bir sözlə, humanitar sahədə münasibətlərimizin nümunəvi olduğunu desəm, zənnimcə, yanılmaram.

Əziz dostlar, sizi bu əlamətdar hadisə, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin ərazisində "Azərbaycan" pavilyonunun açılışı münasibətilə bir daha təbrik edirəm. Əminəm ki, istər iqtisadi, istərsə də humanitar sahədə Azərbaycan-Rusiya münasibətlərinin daha da inkişaf etdirilməsi üçün mövcud potensial gələcəkdə xalqlarımızın rifahı naminə uğurla reallaşdırılacaq. Diqqətinizə görə sağ olun. Sizə möhkəm cansağlığı və uğurlar arzu edirəm. Sağ olun.

X X X

Daha sonra Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko çıxış edib:

-Çox hörmətli Mehriban Arif qızı. Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Ardı Səh. 7

# Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulan "Azərbaycan" pavilyonunun açılış mərasimi olub

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib*

Əvvəli Səh. 6

Biz bu gün belə təntənəli şəraitdə əlamətdar bir hadisə münasibətilə toplaşmışıq. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin incilərindən biri əsaslı bərpadan sonra yenidən öz qapılarını moskvalılara və paytaxtımızın qonaqlarına açır. "Azərbaycan" pavilyonu Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin yaşıdıdır və hörmətli Mehriban Arif qızının artıq dediyi kimi, düz 80 il əvvəl açılıb. O, görkəmli Azərbaycan arxitektorları tərəfindən tikilib və deyərdim ki, həmin vaxt da, bu gün də memarlıq incisidir.

Əlamətdar haldır ki, pavilyonun açılışında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Arif qızı Əliyeva iştirak edir. Bu, bugünkü hadisəyə xüsusi əhəmiyyət qazandırır. Mən çox şadam ki, Mehriban Arif qızı, dünən Rusiya Federasiyasının Prezidenti Sizə "Dostluq" ordeni təqdim edib. Bu, Sizin şəxsən Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə və bir çox başqa məsələlərə, mədəniyyətin inkişafına, humanitar layihələrə Sizin töhfənizin qiymətləndirilməsidir. Həmkarlar, gəlin Mehriban Arif qızı Əliyevanı yüksək dövlət mükafatı münasibətilə bir daha təbrik edək.

Biz bilirik ki, Prezident İlham Əliyev və Siz ölkələrimiz arasında dostluğun möhkəmlənməsi, o cümlədən mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı üçün çox işlər görürsünüz. Biz bunu çox yüksək qiymətləndiririk. Azərbaycan arxitektorlarının düşündüyü kimi, "Azərbaycan" pavilyonu ziyarətçilərə köhnə Bakının küçələrini xatırladacaq, onları sanki günəşli Azərbaycan torpağına aparacaqdı. Pavilyonun bəzədilməsində nadir ornament kompozisiyalarından, şəbəkə freskalarından, Azərbaycan ustalarının mismardan istifadə etmədən kiçik qoz ağacı detallarından yığdıqları şəbəkələrdən istifadə olunmuşdu. Burada milli ənənələr, milli mətbəx yer almışdı, amma zaman keçir, zövqlər dəyişirdi. 1960-cı illərdə pavilyon yenidən quruldu. Təəssüf ki, nadir dəyərə malik olanların bir çoxu məhv edildi.

Beş il əvvəl "Azərbaycan" pavilyonunun onun əvvəlki tarixi görkəmində bərpa edilməsi haqqında razılıq əldə olundu. 2016-cı ildə "Azərbaycan" pavilyonu Azərbaycan tərəfinə təhvil verildi. Ötən müddətdə Azərbaycanın və Rusiyanın nadir ustaları tərəfindən belə incə, dəqiq, gözəl işlər görülüb. Bu gün bizim qarşımızda bərpa olunmuş belə gözəl pavilyon var. İstərdim ki, hər şeydən əvvəl, pavilyonun yenidən qurulmasına öz əməyini sərf etmiş bərpaçılara, ustalara təşəkkürümü ifadə edim. Bütün bərpa işləri hörmətli Mehriban Arif qızının başçılıq etdiyi Heydər Əliyev Fondunun rəhbərliyi ilə aparılıb. Göstərdiyiniz dəstəyə və burada yerinə yetirilmiş nadir işlərə görə Sizə və Fonda "Çox sağ olun!" deyirəm. Yeri gəlmişkən, demək istəyirəm ki, Rusiyada Heydər Əliyevi dəyişməz olaraq hər zaman böyük səmimiyyət və böyük ehtiramla xatırlayırlar.




Bərpa işlərinin gedişinə böyük diqqət yetirən, zəruri təşkilati yardım göstərən Moskva meri Sergey Semyonoviç Sobyaninə də minnətdarlığımı çatdırmaq istəyirəm. Vitse-mer Natalya Alekseyevna Serqunina burada iştirak edir, zəhmət olmasa, Sergey Semyonoviçə böyük minnətdarlığımı çatdırın. Həmçinin Azərbaycanın Rusiyada fövqəladə və səlahiyyətli səfiri, artıq Rusiya ilə Azərbaycan arasında dostluğun bir növ rəmzinə çevrilmiş və bərpa işlərinin gedişinə də böyük diqqət yetirən Polad Bülbüloğluna da təşəkkür etmək istəyirəm.

Hesab edirəm ki, bugünkü pavilyonun açılışı böyük hadisədir. Bu, ölkələrimiz arasında dostluğun əlaməti və rəmzidir. Əminəm ki, bu pavilyon Azərbaycanın Moskvadakı qeyri-formal mədəniyyət nümayəndəliyi statusunu daşıyacaq. Bilirəm ki, pavilyonun rəhbərliyinin müxtəlif sərgilərin, konfransların, digər tədbirlərin keçirilməsi üzrə böyük planları var. Beləliklə, Moskva sakinləri də, paytaxtın çoxsaylı qonaqları da bu məkanda həm Azərbaycan xalqının qədim mədəniyyəti və ənənələri, tarixi və əlbəttə, həm də Azərbaycanın müasir uğurları ilə tanış ola biləcəklər. Biz sizin əsl dostlarınız kimi, ölkənin necə dəyişməsi, ölkədə iqtisadi və sosial inkişaf, vətəndaşların rifahının yaxşılaşdırılması istiqamətində görülən böyük işlərə görə çox şadıq və bunlarla fəxr edirik. Bakı çox gözəlləşib, hər dəfə səfər edəndə valeh olursan, həmişə yeni nə isə görürsən. Ona görə də təəccüblü deyil ki, Rusiyadan turistlərin sayı bu cür templərlə artır. Bakı da, çox gözəl ölkə olan Azərbaycan da olduqca qonaqpərvər və xoşniyyətlidir. Əminəm ki, bizim turistlərin sayı gələcəkdə də artacaq. Biz isə Azərbaycandan Rusiyaya gələn turistlərin sayının artmasında maraqlıyıq. Həmçinin bunun üçün də şərait yaradacağıq.

Mən hamını bu əlamətdar hadisə münasibətilə təbrik etmək istəyirəm. Düşünürəm ki, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun açılışı 2020-ci ilə planlaşdırılan Azərbaycan Mədəniyyəti Günlərinin ərəfəsidir. Bu yaxınlardakı səfərim zamanı Azərbaycanda Rusiya Federasiyası Mədəniyyət Günlərinin açılışını etmək mənim üçün böyük şərəf idi. Bizim təşkil etdiyimiz mədəniyyət tədbirlərinə necə böyük marağın olduğunu bilirəm.

Hörmətli Mehriban Arif qızı, biz Azərbaycanın mədəniyyət təmsilçilərini də bu cür səbirsizliklə Rusiyada gözləyirik. Biz Azərbaycanı sevirik. Biz Azərbaycan mədəniyyətini sevirik. Əminəm ki, Mədəniyyət Günləri böyük uğurla keçəcək. Bir daha hamını bu əlamətdar hadisə münasibətilə təbrik etmək istəyirəm. Hörmətli Mehriban Arif qızı, Rusiyanın ünvanına söylədiyiniz sözlərə və əməkdaşlığımızın gələcək inkişafı üçün göstərdiyiniz səylərə görə Sizə "Çox sağ olun!" deyirəm. Sağ olun.

X X X

Ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxış edərək Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun açılışını tarixi hadisə adlandırdı. Səfir bildirdi ki, vaxtilə bu pavilyonda Azərbaycanın layiqincə təmsil olunması üçün bütün işlər görülmüşdü və bu gün Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə pavilyonumuz yenidən öz fəaliyyətini bərpa edir. Qeyd edək ki, bu layihə mədəniyyətlərarası və millətlərarası dialoq, xalqların bir-birinə yaxınlaşması baxımından böyük rol oynayır.

# Nüfuzlu "Rossiyskaya qazeta" nəşrində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın müsahibəsi dərc olunub

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS İnformasiya Agentliyinə, Rusiyanın nüfuzlu rəsmi qəzeti olan "Rossiyskaya qazeta" nəşrinə və "Rossiya-24" telekanalına müsahibə verib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidentinin müsahibəsi noyabrın 24-də TASS İnformasiya Agentliyinin və "Rossiyskaya qazeta"nın saytlarında yerləşdirilib. Noyabrın 25-də isə müsahibə geniş oxucu kütləsi olan rəsmi "Rossiyskaya qazeta" nəşrində dərc edilib.***

Birinci vitse-prezident Mehriban Əliyeva müsahibəsində Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın suallarını cavablandırıb, Rusiya Federasiyasına rəsmi səfərindən danışıb,


Акценты

Первый вице-президент Азербайджана Мехрибан Алиева дала эксклюзивное интервью «Российской газете» и ТАСС

Отношения Москвы и Баку являются образцовыми


Российская Газета

Не править, а служить

Связанные одной сетью

ölkələrimizi möhkəm dostluq və qonşuluq ənənələrinin birləşdirdiyini, Azərbaycan-Rusiya əlaqələrinin strateji tərəfdaşlıq münasibətləri kimi xarakterizə olunduğunu vurğulayıb, həyata keçirilən birgə layihələri qeyd edib. Birinci vitse-prezident Mehriban Əliyeva müsahibədə iki ölkə arasında humanitar sahədə münasibətlərin dərinləşməsi istiqamətində görülən işlərdən, Azərbaycanda rus dilinə və mədəniyyətinə olan diqqətdən, ölkəmizdəki multikultural mühitdən, Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində yaradılan "Azərbaycan" pavilyonundan danışıb. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini qeyd edən Azərbaycanın Birinci vitse-prezidenti müsahibənin sonunda qarşıdan gələn Yeni il bayramı münasibətilə Azərbaycan və rus xalqlarına xoş arzularını çatdırıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva 8-ci Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesi ilə tanış olub

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiyaya rəsmi səfəri çərçivəsində noyabrın 24-də Dövlət Tretyakov Qalereyasında olub.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva hazırda davam edən 8-ci Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesi ilə tanış olublar. Birinci vitse-prezident Mehriban Əliyevanı Dövlət Tretyakov Qalereyasının direktoru Zelfira Trequlova və Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesinin kuratoru Yuliya Muzıkantskaya qarşıladılar.

Tretyakov Qalereyasının direktoru Zelfira Trequlova Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya qalereyada davam edən 8-ci Beynəlxalq Müasir İncəsənət Biennalesi haqqında məlumat verdi.

Bildirildi ki, biennaledə Rusiya, Avstriya, Bəhreyn, Almaniya, Səudiyyə Ərəbistanı, İtaliya, Almaniya, Çin, Niderland, ABŞ, Fransa rəssamları iştirak edirlər. Biennalenin əsas layihəsinin kuratoru Moskvadakı “Federasiya” və “Moskva-Siti” komplekslərinin müəllifi Dmitri Çernyakovdur. Müəllif bir neçə pavilyonda müxtəlif mövzu və janrları kiçik kapsullarda və evlərdə ümumi dialoqda birləşdirib. Bütün bu müxtəlifliyi bir-biri ilə uzlaşdırmaq asan olmadığından sərgi “Məkan oriyentasiyası” adlandırılıb. “Məkan oriyentasiyası” mövzusuna həsr olunan Müasir İncəsənət Biennalesində 11 ölkədən 34 rəssamın 50-dən çox əsəri nümayiş etdirilir.

Birinci vitse-prezident Mehriban Əliyeva ekspozisiyada Azərbaycan rəssamları Orxan Məmmədovun “Estetikanın saxlanması ideyası” və Leyla Əliyevanın “Əbədiyyət” multimedia installyasiyaları ilə tanış oldu.

Orxan Məmmədovun təqdim etdiyi installyasiyada müxtəlif dövrlərə aid 50-dən çox Azərbaycan xalçasının naxışları toplanıb. Rəssamın süni intellektdən istifadə edərək hazırladığı art-obyektdə naxışlar bir-birini əvəzləyir.

Leyla Əliyevanın rəhbərliyi ilə 20 nəfərdən ibarət yaradıcı kollektivin videoart janrında hazırladığı “Əbədiyyət” əsərində insan cəsarətindən söhbət açılır. Qeyd olundu ki, Moskva Biennalesinin tərəfdaşı dünyanın ən sanballı qrafik əsərlər toplusu olan Avstriyanın məşhur Albertina muzeyidir. Sərgidə XX əsrin 11 məşhur rəssamının muzeydə saxlanılan əsərləri ümumi mədəni məkanda nümayiş etdirilir.








# “Rossiya 24” telekanalı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın müsahibəsini yayımlayıb

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS İnformasiya Agentliyinə, Rusiyanın nüfuzlu rəsmi qəzeti olan “Rossiyskaya qazeta” nəşrinə və “Rossiya-24” telekanalına müsahibə verib. Noyabrın 25-də “Rossiya-24” telekanalı Birinci vitse-prezident Mehriban Əliyevanın müsahibəsini yayımlayıb. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva müsahibəsində Rusiya Federasiyasına rəsmi səfərindən danışıb, ölkələrimizi möhkəm dostluq və qonşuluq ənənələrinin birləşdirdiyini, Azərbaycan-Rusiya əlaqələrinin strateji tərəfdaşlıq münasibətləri kimi xarakterizə olunduğunu vurğulayıb, həyata keçirilən birgə layihələri qeyd edib.***







Birinci vitse-prezident Mehriban Əliyeva müsahibədə iki ölkə arasında humanitar sahədə münasibətlərin dərinləşməsi istiqamətində görülən işlərdən, Azərbaycanda rus dilinə və mədəniyyətinə olan diqqətdən, ölkəmizdəki multikultural mühitdən, Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində yaradılan “Azərbaycan” pavilyonundan danışıb. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətini qeyd edən Azərbaycanın Birinci vitse-prezidenti müsahibənin sonunda qarşıdan gələn Yeni il bayramı münasibətilə Azərbaycan və rus xalqlarına xoş arzularını çatdırıb.



# Şimali Osetiya-Alaniyada Böyük Vətən müharibəsində canlarından keçmiş azərbaycanlıların xatirəsinin anım mərasimi olub

## *Azərbaycan nümayəndə heyəti anım mərasimində iştirak edib*

***Noyabrın 24-də Rusiya Federasiyasının Şimali Osetiya-Alaniya Respublikasında Böyük Vətən müharibəsi zamanı Mozdokun azad olunmasında iştirak etmiş azərbaycanlılardan ibarət 223-cü atıcı diviziyanın tərkibində döyüşərək canlarından keçmiş azərbaycanlıların xatirəsinin anım mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyəti Mozdokda keçirilən anım mərasimində iştirak edib. Mərasim iştirakçıları 223-cü atıcı diviziyanın döyüşçülərinin şərəfinə ucaldılmış abidənin önünə əklillər qoyublar. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə tədbirdə çıxış edərək bildirib ki, Qafqaz xalqları arasında mehriban münasibətlər misilsiz tarixi sərvətdir:***



-Sizi 1942-ci ildə Şimali Osetiyada Mozdokun azad edilməsi zamanı 223-cü Azərbaycan atıcı diviziyasının həlak olmuş döyüşçülərinin xatirəsinə həsr olunmuş tədbirdə salamlayıram.





Qafqaz xalqları arasında mehriban münasibətlər misilsiz tarixi sərvətdir. Bu, elə bir böyük nemətdir ki, hətta həmvətənlər, vahid ölkənin vətəndaşları olmayanda da bizi tarixi qarşılıqlı hörmət, mehriban qonşuluq ənənələri birləşdirir. Müdriklik bundadır ki, xalqlarımız ortaq tarixi keçmişimizdə qarşılıqlı münasibətlərimizə xas olan yaxşı nə varsa hamısını qayğı ilə qoruyub saxlasınlar və inkişaf etdirsinlər.

Biz 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin bayram edilməsi ərəfəsində bu tarixi reallıqları xüsusi qiymətləndiririk. Biz ortaq keçmişimizdə öz torpaqlarımızı birlikdə müdafiə etmişik. Bu gün məscidlərimizi, dini ocaqlarımızı birlikdə qururuq, dinc gələcəyimizin qayğısına da birlikdə qalmalıyıq. Məsələn, Qafqazda Qarabağ problemi özünün beynəlxalq hüquq əsasında, sülh yolu ilə ədalətli həllini gözləyir. Biz, Qafqazın dini liderləri Tanrıya dualar oxuyuruq ki, Yer kürəsinin heç bir yerində heç vaxt müharibələr olmasın, bizim evimiz Qafqazda həmişə sülh, əmin-amanlıq bərqərar olsun, bunun naminə mümkün olan hər şeyi edirik. Təəssüf ki, bu gün də faşizmi yaşadan qüvvələr var. Hazırda bəzi yerlərdə insanlara zülm edən Qaregin Njdeyə abidə qoyulur. Bu cür hallara qarşı biz birlikdə mübarizə aparmalıyıq.

Çoxmillətli və çoxkonfessiyalı dövlət kimi Rusiyanın böyüklüyü, ilk növbədə, onun xalqların mənəvi-dini dəyərlərinə və tarixi ənənələrinə yüksək münasibəti və dərindən bağlı olması ilə səciyyələnir. Bugünkü tədbir buna gözəl nümunədir.

Şimali Osetiya-Alaniyada, Vladiqafqaz şəhərinin mərkəzində Qafqazda özünün memarlıq quruluşuna görə nadir olan məscidlərdən birinin - Azərbaycan xalqının şanlı oğlu tərəfindən osetin xalqına hörmətin əlaməti, Azərbaycan və osetin xalqlarının dini birliyinin rəmzi olaraq inşa etdirilmiş Muxtarov məscidinin minarələri məğrurcasına ucalır. Mozdokda qardaş torpağı azad etmiş azərbaycanlı döyüşçülərin xatirəsinə obelisk ucaldılıb. Budur həqiqi dostluq və qardaşlıq yardımı nümunəsi, böyüməkdə olan nəsil üçün gözəl örnək. Budur, bu gün biz faşizmə qarşı döyüşlərdə həlak olanların xatirəsini anmaq üçün Şimali Osetiya torpağında toplaşmışıq. Əminəm ki, bu cür görüşlər təkcə mövcud qardaşlıq, dini əlaqələrin möhkəmlənməsinə deyil, həm də bu əlaqələrin xalqlarımızın, ümmətimizin rifahı naminə genişlənməsinə xidmət edəcək. Bizim həmrəyliyimiz faşizmə qarşı müharibədə həlak olmuş bütün insanların xatirəsinə gözəl töhfədir. Allah onların ruhunu şad eləsin! Şəhidlərimizin yeri cənnət olsun! Amin!

***

Sonra Azərbaycanın Baş Nazirinin müavini Şahin Mustafayev çıxış edib: İcazə verin, sizi ürəkdən salamlayım və Rusiya tərəfinə səmimi qəbula və bu tədbirin yüksək səviyyədə təşkilinə görə dərin minnətdarlığımı bildirim. Azərbaycan Respublikası MDB çərçivəsində humanitar əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir. Bu baxımdan ölkələrimizin mədəni dəyərlərinin və ortaq tarixi yaddaşımızın qorunub saxlanılması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında Böyük Vətən müharibəsində həlak olanların xatirəsini əziz tuturlar və dövlət müharibə veteranlarına böyük qayğı göstərir. 9 May - Qələbə Günü Azərbaycanda hər il yüksək səviyyədə qeyd olunur.

Məlum olduğu kimi, 2020-ci il Müstəqil Dövlətlər Birliyində 1941-1945-ci illər Böyük Vətən müharibəsində "Qələbənin 75 illiyi" elan edilib. Bu baxımdan bugünkü tədbirin keçirilməsi Azərbaycan tərəfi üçün xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan xalqı faşizm üzərində ümumi qələbəmizə misilsiz töhfə verib. Azərbaycanın 600 mindən çox oğlu və qızı Böyük Vətən müharibəsinin cəbhələrində rəşadətlə döyüşüblər, onların yarısı cəbhələrdə qəhrəmancasına həlak olub. Göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 170 mindən çox əsgər və zabit müxtəlif orden və medallarla təltif olunub. Bütün müharibə boyu Azərbaycan həyati əhəmiyyətli neft məhsullarının cəbhəyə əsas tədarükçüsü olub. Neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü.

Faşist Almaniyasının Şimali və Cənubi Qafqazın, o cümlədən Bakının neft mədənlərinin ələ keçirilməsi üzrə "Edelveys" planı var idi. Bakı nefti olmadan sovet ordusu Qələbə üçün çox zəruri olan yanacaqdan məhrum ola bilərdi.

Böyük Vətən müharibəsi zamanı Azərbaycanda beş milli diviziya formalaşdırılıb. 223-cü Azərbaycan atıcı diviziyası SSRİ Müdafiə Xalq Komissarlığının 1941-ci il 14 oktyabr tarixli əmri ilə Zaqafqaziya cəbhəsində formalaşdırılıb. Diviziyanın hissələri Azərbaycanda formalaşıb. Bu diviziya yaradılması üçün sözsüz ki, komandir - general mayor Heybət Atamoğlan oğlu Heybətova borcludur.

223-cü Azərbaycan atıcı diviziyası əvvəlcə Qudermesdən Xəzər dənizinə qədər ikinci eşelonda müdafiə mövqeyini tutub, 1942-ci ilin dekabrında isə Mozdok şəhərindən şərqə doğru birinci eşelona irəli çəkilib. Diviziyanın şərq istiqamətində zəfər yürüşü də buradan başlayıb. Azərbaycanın bu atıcı diviziyası Avropanın faşizmdən azad edilməsində böyük rol oynayıb. Diviziya Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Avstriya və Çexoslovakiya ərazilərində gedən ağır döyüşlərdə iştirak edib.

Ümumilikdə, 223-cü atıcı diviziya 3600 kilometr döyüş yolu keçib. Onun minlərlə döyüşçüsü orden və medallarla təltif edilib, iki nəfərə isə Sovet İttifaqı Qəhrəmanı adı verilib. Bu tarixi faktların hamısı yaşlı nəslə yaxşı məlumdur, lakin bizim gənc nəsil də onları bilməlidir.

Bu gün bəzi ölkələrdə həmin müharibə haqqında həqiqətlərin təhrif olunması cəhdləri göstərilir, kimlərsə tarixi yalan əsasında yenidən yazmağa cəhd edir. Bu, yolverilməzdir. Ona görə biz etirazımızı bildirməli və bununla bağlı fikirlərimizi söyləməliyik. Bu gün faşist ideologiyası bəzi yerlərdə yenidən baş qaldırır. Biz buna yol verə, biganə qala bilmərik.

***Ardı Səh. 10***

# Şimali Osetiya-Alaniyada Böyük Vətən müharibəsində canlarından keçmiş azərbaycanlıların xatirəsinin anım mərasimi olub

*Azərbaycan nümayəndə heyəti anım mərasimində iştirak edib*

Əvvəli Səh. 9



Təəssüf hissi ilə vurğulamaq istərdim ki, Azərbaycan xalqı XX əsrin sonlarında yenidən təcavüzkar faşizmin təzahürləri ilə üzləşib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan Respublikasının ərazilərinin 20 faizi Ermənistan Respublikasının işğalı altındadır, Dağlıq Qarabağın azərbaycanlı əhalisi isə etnik təmizləməyə məruz qalıb, bir milyondan çox azərbaycanlı yaşadığı tarixi yerlərdən zorla didərgin salınıb, qaçqın və məcburi köçkünə çevrilib.

Qeyd etmək lazımdır ki, bütün sivil dünyanın faşistlərin qəhrəmanlaşdırılmasına qarşı çıxdıqları bir vaxtda, MDB məkanında, xüsusən Ermənistan Respublikasında faşizmin qəhrəmanlaşdırılmasına cəhdlər göstərilir. Yerevanın mərkəzində faşist cəlladı və xain, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyanın altı metrlik heykəli qoyulub. MDB ölkələrindən olan veteran qrupları Ermənistan rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə qəti etirazlarını bildiriblər.

Rusiyanın Xarici İşlər Nazirliyi öz hesabatında onun Üçüncü Reyxlə cinayətkar əlaqələrini qeyd edib. Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikovun şəxsində Rusiyanın vicdanlı və cəsur vətəndaşları bu faktla bağlı qəti etirazlarını ifadə ediblər.

Çıxışımın sonunda faşist Almaniyası üzərində Qələbədə Rusiya və Azərbaycanın birgə səylərinin əhəmiyyətini bir daha qeyd etmək, bunun xalqlarımızın birgə mübarizəsinin və sarsılmaz dostluğunun şərəfli dövrü olduğunu xüsusi vurğulamaq istəyirəm. Barışmaz düşmənlə döyüşlərdə göstərilmiş və möhkəmlənmiş bu hisslər əsrlərboyu yaşayacaq.

***

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov öz çıxışında qeyd edib ki, bu heykəl Azərbaycan və osetin xalqları, bütövlükdə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı dostluğun daha bir rəmzidir:

-Əvvəlcə, 223-cü Azərbaycan atıcı diviziyasının xatirəsinə həsr olunmuş bugünkü tədbirdə iştirakınıza görə hamınıza təşəkkür etmək istərdim. Həmçinin bu bərəkətli torpaqda olduğumuz ilk dəqiqələrdən bizə göstərilən səmimi qəbula və qonaqpərvərliyə görə Şimali Osetiya - Alaniya Respublikasının rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Bizi əlamətdar hadisə - Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümündən cəmi yarım il ayırır. Həmin illərin qəhrəmanlıq hadisələri əvvəlki kimi yaddaşlardan silinmir. Əksinə, atalarımızın və babalarımızın faşist Almaniyası ilə amansız döyüşlərdə göstərdikləri igidliyə görə qürur hissi ildən-ilə güclənir. Bu müharibədə Sovet İttifaqının başqa millətlərinin nümayəndələri kimi, azərbaycanlılar da öz ölkələrinin müdafiəsinə qalxdılar və təcavüzkarın darmadağın edilməsinə layiqli töhfələrini verdilər. Bizim əsgər və zabitlərimiz demək olar ki, bütün cəbhələrdə, o cümlədən Şimali Osetiyanın müdafiəsində rəşadətlə döyüşüblər. 1942-ci ilin ikinci yarısında məhz burada 223-cü atıcı diviziyanın da iştirak etdiyi qanlı döyüşlər başlayıb. Diviziya 86 faizinin azərbaycanlılar olduğu əsgər və zabitlərinin böyük bir hissəsini Şimali Qafqazın müdafiəsi uğrunda döyüşlərdə itirib. Yeri gəlmişkən, onların əksəriyyətinin 20 yaşı da olmayıb. Böyük Vətən müharibəsində həlak olmuş bütün döyüşçülərin ruhu şad olsun.

Məlumdur ki, İkinci Dünya müharibəsi illərində 223-cü diviziya Rumıniya, Bolqarıstan, Yuqoslaviya və Macarıstan ərazilərində gedən döyüşlərdə iştirak edib. Yuqoslaviyanın azad olunmasında döyüş xidmətlərinə görə ona "Belqrad" fəxri adı verilib. Ümumilikdə, diviziya 3600 kilometr döyüş yolu keçib, düşmənin 25 mindən çox canlı qüvvəsini, 30 təyyarəsini, 100-dən artıq tankını məhv edib. Diviziyanın minlərlə döyüşçüsü orden və medallarla təltif olunub, onların ikisi isə ən yüksək mükafata - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Ümumilikdə, müharibə illərində Azərbaycan 600 mindən çox oğul və qızını cəbhəyə yollayıb. Onların təxminən yarısı canlarını faşist Almaniyası və onun müttəfiqləri üzərində Qələbə uğrunda qurban verib. İşğalçılarla döyüşlərdə göstərdikləri rəşadətə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabit isə müxtəlif orden və medallarla təltif edilib.

Ölkənin yanacaqla təmin edilməsində də Azərbaycanın əvəzsiz rolu olub. Müharibə illərində neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi bizim respublikanın payına düşürdü. Mübaliğəsiz demək olar ki, Bakı nefti olmadan sovet ordusu düşmənə qalib gələ bilməzdi. Məhz ona görə Hitler Azərbaycanın neft yataqlarının ələ keçirilməsinə xüsusi əhəmiyyət verirdi. Lakin sovet əsgər və zabitlərinin, o cümlədən 223-cü atıcı diviziyanın şəxsi heyətinin qəhrəmanlığı sayəsində bu planı həyata keçirmək ona müyəssər olmadı.

Tarixin ən dağıdıcı və qanlı müharibəsinin başa çatmasından 75 ilə yaxın vaxt ötür. Təəssüf ki, son illər bəzi ölkələrdə müharibənin dərsləri unudulur, nasistlərin və onların əlaltılarının qəhrəmanlaşdırılması cəhdləri göstərilir. Məsələn, bir neçə il əvvəl Ermənistan paytaxtında Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyanın altı metrlik heykəli ucaldılıb. 2012-ci ildə isə Krasnodar diyarındakı Armavir şəhərinin erməni icması erməni Apostol kilsəsinin ərazisində ona xatirə lövhəsi qoyub. Onun Üçüncü Reyxlə fəal əməkdaşlıq etdiyi, Qızıl Ordunun hissələrinə qarşı döyüşən diversiya qrupu və bütöv bir erməni batalyonu yaratdığı məlumdur. Njdenin əsas şüarı belə olub: "Almaniya uğrunda həlak olan, Ermənistan uğrunda həlak olur". Hesab edirəm ki, postsovet məkanında bu cür cinayətkarların qəhrəmanlaşdırılması cəhdlərinə yer olmamalıdır. Həm Yerevandakı abidə, həm də Armavirdəki xatirə lövhəsi sökülməli, onların təşəbbüskarları və təşkilatçıları isə cəmiyyətin bütün təbəqələri tərəfindən qəti şəkildə qınanmalıdır.

Bu baxımdan faşist işğalçıları və onların əlaltıları ilə döyüşlərdə həlak olmuş azərbaycanlı döyüşçülərin xatirəsinə abidə qoyulması xüsusi hörmətə və dərin minnətdarlığa layiqdir. Şübhəsiz ki, bu heykəl Azərbaycan və osetin xalqları, bütövlükdə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasındakı dostluğun daha bir rəmzidir.

Müstəqilliyini bərpa etdikdən sonra Rusiya ilə mehriban qonşuluq əlaqələrinin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin ən mühüm istiqamətlərindən biri olub. Sevindirici haldır ki, ikitərəfli əlaqələrimiz bütün istiqamətlərdə - siyasətdən humanitar sahəyədək inkişaf edir. Biz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik, iqtisadi-ticari və mədəni sahələrdə uğurlu qarşılıqlı fəaliyyət göstəririk, energetika və nəqliyyat sektorlarında birgə layihələr həyata keçiririk. Regionlararası əməkdaşlıq da ildən-ilə inkişaf edir. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycanla iqtisadi-ticari və humanitar əlaqələr yaradıb. Onların arasında sizin respublika da var. 2015-ci ildə Azərbaycan və Şimali Osetiya-Alaniya hökumətləri arasında iqtisadi-ticari, elmi-texniki və mədəni əməkdaşlığa dair Saziş imzalanıb. Bu sənəd çərçivəsində müxtəlif sahələrdə əhəmiyyətli layihələr həyata keçirilir.

Bildiyiniz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin şəxsən dəstəyi ilə Vladiqafqazda XX əsrin böyük neft sənayeçisi və mesenatı Murtuza Muxtarovun inşa etdirdiyi məscid bərpa olunub. Qeyd etmək xoşdur ki, bizim ənənəvi dostluğumuzun və qardaşlığımızın təcəssümü olan bu memarlıq incisi Şimali Osetiyanın mədəni-mənəvi mərkəzlərindən biridir.

Sonda vurğulamaq istərdim ki, Azərbaycan gələcəkdə də həm Şimali Osetiya, həm də bütövlükdə Rusiya Federasiyası ilə əməkdaşlığın dərinləşdirilməsi və genişləndirilməsi niyyətindədir. Əminəm ki, biz birgə səylərlə ikitərəfli əlaqələrimizi yeni, daha yüksək səviyyəyə qaldıra biləcəyik.

***

Anım tədbirində çıxış edən digər natiqlər də Böyük Vətən müharibəsində Qələbənin qazanılmasında xalqımızın rolundan danışıblar. Bildirilib ki, müharibə zamanı 223-cü diviziya böyük qəhrəmanlıq yolu keçib, düşmənə ağır zərbələr vurub. Müharibədə həyati əhəmiyyətli neft məhsullarının - benzinin 80 faizi, motor yağlarının 90 faizi məhz Azərbaycanın payına düşürdü. Bu isə Azərbaycanın Qələbənin qazanılmasında rolunun bariz nümunəsidir.



## Azərbaycan nümayəndə heyəti Rusiyanın Şimali Osetiya-Alaniya Respublikasının rəhbəri ilə görüşüb

Noyabrın 25-də Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyası Şimali Osetiya-Alaniya Respublikasının rəhbəri Vyaçeslav Bitarov ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Vyaçeslav Bitarov Azərbaycan və Şimali Osetiya xalqları arasında münasibətlərin daha da yaxşılaşdırılması üçün davamlı işlər görüldüyünü deyib. Bildirib ki, uzun illər qonşuluq şəraitində yaşayan xalqlarımız arasında dostluq münasibətləri var.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə nümayəndə heyətinin tərkibində həm dövlət rəsmilərinin, həm də ölkəmizdəki müxtəlif konfessiya rəhbərlərinin iştirak etdiklərini deyib. Qeyd edib ki, bu amil Azərbaycanda mövcud olan multikulturalizmin əyani sübutudur.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov vurğulayıb ki, Azərbaycan ilə Rusiya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Bu əlaqələrin əsas istiqamətlərini iki ölkənin prezidentləri müəyyənləşdirir və xalqların qarşılıqlı maraqları nəzərə alınır. Səfər çərçivəsində Azərbaycan Prezidentinin şəxsi yardımı sayəsində Vladiqafqazda yenidən bərpa olunan Muxtarov məscidi də ziyarət olunub. Azərbaycan nümayəndə heyətinə məlumat verilib ki, hazırda məscidin ətrafında da abadlıq işləri davam etdirilir. Nümayəndə heyəti, həmçinin Alaniya Tarix Muzeyində olub.

## Şimali Osetiya-Alaniya Müsəlmanları Ruhani İdarəsinin 25 illiyinə həsr olunan tədbir keçirilib







***Noyabrın 25-də Vladiqafqazda Şimali Osetiya-Alaniya Müsəlmanları Ruhani İdarəsinin 25 illiyinə həsr olunan tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan nümayəndə heyəti ilə bərabər, Rusiya Federasiyası subyektlərinin dini rəhbərləri, dövlət rəsmiləri və ictimai xadimlər iştirak ediblər.***

Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını iştirakçılara çatdırıb. Bildirib ki, ötən 25 ildə Şimali Osetiya-Alaniya Respublikası Müsəlmanları Ruhani İdarəsinin fəaliyyətini uğurlu hesab etmək olar. Qafqazın din xadimlərinin qardaşlıq əlaqələri bölgə müsəlmanlarının daha da yaxınlaşmasına, regionda sülhə və sabitliyə, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edir. Qafqaz müftiləri Bakıda İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin şəxsi qonağı statusunda iştirak ediblər. Vladiqafqazda Muxtarov məscidinin bərpa edilməsi ilə bağlı bizim Əlaqələndirmə Mərkəzi adından Prezident İlham Əliyevə müraciət edəndə dövlətimizin başçısı bu çağırışa ona xas olan yüksək diqqətlə yanaşdı. Bu gün biz bu yüksək səviyyədə diqqətin şahidiyik. Bu yaxınlarda bütün Qafqaz müftiləri Dünya dini liderlərinin II Bakı Sammitində iştirak ediblər. Bu, Qafqazda xoş ənənəyə çevrilib. Qarşılıqlı xeyirxah hisslər və münasibətlər bundan sonra da mehriban qonşuluq, həqiqi qardaşlıq məcrasında inkişaf etməlidir. Rəhbərlərimizin xalqlarımız arasında qarşılıqlı səmimi münasibətlərin inkişafı naminə səyləri istər Azərbaycanda, istərsə də Rusiyada səmimi əks-səda doğurur.

"Biz noyabrın 24-də 1942-ci ildə Şimali Osetiyanın Mozdok bölgəsinin azad edilməsi zamanı 223-cü Azərbaycan atıcı diviziyasının həlak olmuş döyüşçülərinin xatirəsinə həsr olunmuş tədbirdə iştirak etdik. Biz ortaq keçmişimizdə öz torpaqlarımızı birgə müdafiə etmişik, dinc gələcəyimizin qayğısına da birlikdə qalmalıyıq. Biz, din xadimləri, ölkələrimizin rəhbərlərinin dəstəyinə arxalanaraq xalqlarımızın və müqəddəs dinimizin layiqli və təhlükəsiz gələcəyinin təmin edilməsi işinə mümkün töhfəmizi verməliyik. Son illər Yaxın Şərqdə baş verən dəhşətli hadisələr baxımından bu məsələ xüsusilə aktualdır. Əminəm, ekstremizmə, radikalizmə, təkfirçiliyə yalnız dövlətlərin, ictimai və siyasi xadimlərin, dini birliklərin və dindarların birgə səyləri ilə müqavimət göstərmək olar", - deyə Şeyxülislam Allahşükür Paşazadə qeyd edib.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Şimali Osetiya-Alaniya müftisi Hacımurad Qatsalovun region ölkələri üzrə dinlərarası münasibətlərin inkişafında xüsusi rolu olduğunu deyib. Əlavə edib ki, Hacımurad Qatsalov dinlərarası və millətlərarası münasibətlərə, konfessiyalararası dialoqa böyük töhfələr verib. Əli Həsənov müfti Hacımurad Qatsalovun Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsində səmərəli fəaliyyətinə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən "Dostluq" ordeni ilə təltif edildiyini bildirib. Prezidentin köməkçisi Əli Həsənov ordeni Hacımurad Qatsalova təqdim edib. Tədbir bədii hissə ilə davam edib.

## Akademik Arif Paşayev Xarkov Aviasiya İnstitutunun fəxri adları ilə təltif edilib



Ukraynanın N.Y.Jukovski adına Milli Aerokosmik Universitetinin Xarkov Aviasiya İnstitutunun rektoru, professor Nikolay Neçiporuk, Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski, "Azərbaycan Hava Yolları" QSC və "Silk Way" aviaşirkətinin prezidentlərinin müşaviri, akademik Dmitri Kiva, eləcə də universitetin və səfirliyin bir qrup nümayəndəsi "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) nəzdindəki Milli Aviasiya Akademiyasında (MAA) olublar.

AZAL-ın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər zamanı qonaqlar "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov və Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevlə görüşüblər.

Görüş zamanı Ukrayna Milli Aerokosmik Universitetinin və Azərbaycan Milli Aviasiya Akademiyasının elm və təhsil sahələrində həyata keçirdikləri inkişaf strategiyasının aktual məsələləri, eləcə də tədris müəssisələri arasında əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Görüşdə professor N.Neçiporuk Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevə N.Y.Jukovski adına Ukrayna Milli Aerokosmik Universitetinin Xarkov Aviasiya İnstitutunun "Fəxri elmlər doktoru" və "Fəxri professor" attestatlarını təqdim edib.

N.Neçiporuk bu fəxri adların Ukrayna Milli Aerokosmik Universitetinin Elmi Şurasının müvafiq qərarları əsasında Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevə elmin və təhsilin inkişafına verdiyi töhfəyə, aviasiya texnikasının diaqnostikasında müasir metod və vasitələrin tətbiq olunmasına, aerokosmik sahə üçün mütəxəssis hazırlığında görülən işlərə görə verildiyini qeyd edib.

Görüş zamanı, həmçinin Ukrayna Milli Aerokosmik Universiteti və Azərbaycan Milli Aviasiya Akademiyası arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sonra ukraynalı qonaqlar Azərbaycan Milli Aviasiya Akademiyasının infrastrukturu, elmi-praktik və tədris-təcrübə bazası ilə tanış olub, müəllim və tələbələri ilə görüşüblər.

## Əli Əhmədov: Hikkə və ambisiya Əli İnsanova həqiqəti dərk etməyə ciddi mane olur



"Əli İnsanovun partiya yaratması o qədər kiçik hadisədir ki, onu şərh etməyə belə dəyməz. Hadisələr göstərir ki, bu insan cəmiyyət üçün bütünlüklə itirilmişdir. Məhbusluq həyatı ona dərs olmadı, islah olunmadı. Səhvini davam etdirir. Bu onun öz seçimidir. Cəmiyyətin seçimi isə tamam fərqlidir. Hikkə və ambisiya Əli İnsanova həqiqəti dərk etməyə ciddi mane olur".

Bu fikirləri Baş nazirin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov APA-nın sualını cavablandırarkən deyib.

Əli Əhmədov qeyd edib ki, elan etdiyi partiyaya gəldikdə isə, hələlik məlum olan odur ki, özünə məşğuliyyət tapa bilməyən bir neçəsi onun yanına gedib gəlir: "Cəmiyyət Əli İnsanovun bir neçə bəyanatını soyuq və biganə qarşıladığı kimi, yaratdığını elan etdiyi partiyaya da münasibət fərqli olmayacaq. O, sosial bazadan tam məhrumdur. Onun partiya yaratması ilə əlaqədar diqqəti çəkən yalnız ad oldu. Daha doğrusu, adın və mahiyyətin dərin təzadı. Əli İnsanov hara, haqq - ədalət hara. Bu gün cəmiyyətdə Əli İnsanovla əlaqədar aparılan müzakirələr əsas etibarilə onun qanunsuz yollar ilə əldə etdiyi sərvətlər və malikanələri haqqındadır. Onun Haqq Ədalət partiyası yaratması, əslində bu bəşəri dəyərlərə hörmətsizlikdir, həqarətdir. Əli İnsanovu tanıyanlar çox gözəl bilir ki, bu insanın xarakterində həmin anlayışlara heç zaman yer olmayıb və bu gün də yoxdur. Onda nə ədalət var, nə də o, haqqı tanıyan insandır. Sonda onu deyə bilərəm ki, Azərbaycanda onlarla partiya var ki, mövcudluğundan belə kiminsə xəbəri yoxdur. Qoy bu da onlardan biri olsun. Fərq etməz".

## Yeni Azərbaycan Partiyasının İcra Katibliyində bələdiyyə seçkilərində məşvərətçi səs hüquqlu üzvlərinin iştirakı ilə müşavirə keçirilib

Noyabrın 23-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində bu ilin dekabr ayının 23-də ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar ümumrespublika müşavirəsi keçirilib.

Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərində məşvərətçi səs hüquqlu üzvlərinin iştirakı ilə keçirilən müşavirədə seçkilərə hazırlıq, seçki



prosesinin gedişi, qanunvericiliyin tələblərindən irəli gələn məsuliyyət və vəzifələr müzakirə edilmişdir. YAP İcra Katibinin müavini, MM-in komitə sədri Siyavuş Novruzov müşavirədə bu ilin dekabr ayının 23-də ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq məsələləri ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verib.

# Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafına mühüm töhfədir

**Cənubi Qafqaz regionunun lider ölkəsi olan Azərbaycan yüksək beynəlxalq nüfuza, müsbət reputasiyaya malikdir. Dünyada böyük etimad qazanan ölkəmiz müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır.**



*YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov*

Eyni zamanda, Azərbaycan regional və qlobal təhlükəsizliyə fundamental töhfələr verir, beynəlxalq miqyasda əməkdaşlığın dərinləşməsində və inteqrasiyanın intensiv xarakter daşımasında mühüm rol oynayır. Ölkəmizin təşəbbüsü və liderliyi ilə reallaşdırılan transmilli enerji və nəqliyyat-kommunikasiya layihələrinin səmərəli geostrateji nəticələri bunun bariz nümunəsidir. Bir sözlə, praqmatik, çoxvektorlu və milli maraqlara əsaslanan müstəqil xarici siyasət kursu Azərbaycanın ikitərəfli və çoxtərəfli münasibətlərinin davamlı inkişafını, respublikamızın beynəlxalq mövqeyinin mütəmadi olaraq möhkəmlənməsini şərtləndirir.

Bütün bu reallıqların qanunauyğun nəticəsi kimi, istər regional, istərsə də qlobal miqyasda mühüm təsir imkanları və mexanizmlərinə malik olan müstəqil milli dövlətlər, eləcə də beynəlxalq münasibətlər sistemində güc mərkəzləri kimi çıxış edən ölkələr tərəfindən Azərbaycanın dünya siyasətində fəal rolu, həyata keçirilən praqmatik strateji kursu yüksək qiymətləndirilir, respublikamızla müxtəlif sahələri əhatə edən əlaqələrin inkişafına böyük əhəmiyyət verilir. Bu baxımdan, Rusiya Federasiyasının Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verməsi ayrıca qeyd edilməlidir. Öz növbəsində, Azərbaycanın xarici siyasət kursunda da Rusiya Federasiyası ilə qarşılıqlı faydalı münasibətlər mühüm yer tutur.

Rusiya-Azərbaycan münasibətləri çoxşaxəli xarakter daşıyır, hər iki ölkənin milli-strateji maraqlarına cavab verir

Mühüm məqamlardan biri budur ki, qarşılıqlı səfər və görüşlər iki ölkə arasındakı münasibətlərin inkişafına əhəmiyyətli töhfələr verir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın noyabrın 21-də Rusiya Federasiyasına rəsmi səfəri bu baxımdan mühüm əhəmiyyətə malikdir. Birinci vitse-prezidenti Mehriban Əliyeva bəhs olunan səfər çərçivəsində keçirdiyi görüşlər zamanı qeyd edib ki, Azərbaycan Rusiya ilə qarşılıqlı münasibətlərə müstəsna dərəcədə böyük əhəmiyyət verir: “Ölkələrimizi möhkəm, qədim dostluq və mehriban qonşuluq əlaqələri birləşdirir. Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi, həmçinin hər iki tərəfin birgə səyləri sayəsində bu gün münasibətlərimiz strateji tərəfdaşlıq kimi xarakterizə olunur. Fəal siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya prezidentləri mütəmadi olaraq görüşlər keçirirlər. Bu görüşlər, demək olar ki, bütün sahələrdə münasibətlərin inkişafına güclü impuls və dinamizm verir”.

İki ölkə arasında əlaqələr çoxşaxəli xarakter daşıyır. Eyni zamanda, iqtisadi sahədə də əməkdaşlığın inkişaf dinamikası məmnunluq doğurur. Başqa sözlə, ticari-iqtisadi sahədə əlaqələr müsbət dinamikaya malikdir, uğurla inkişaf edir. Əmtəə dövriyyəsinin davamlı olaraq artması isə iqtisadi-ticari əlaqələrin səmərəliliyini göstərən mühüm faktlardandır. Hər iki tərəfin təsdiq etdiyi “Yol xəritələri”nin reallaşdırılması da, heç şübhəsiz, qarşılıqlı-faydalı əməkdaşlığın dərinləşməsi, bütün sahələrdə inteqrasiyanın intensiv xarakter daşıması baxımından böyük önəm daşıyır. Ən əsası, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalı üzrə birinci yeri tutur. Əmtəə dövriyyəsi ötən il 19 faiz artım olub və 2,6 milyard ABŞ dolları təşkil edib. Bu ilin 9 ayında isə artım 24 faizə çatıb. Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya sərmayələrinin həcmi 4,9 milyard dollardır, Azərbaycan Rusiyaya 1,2 milyard dollar sərmayə qoyub.

Hazırda Azərbaycanla Rusiya arasında 140-a yaxın dövlətlərarası və hökumətlərarası müqavilə və saziş qüvvədədir. Ötən il 2024-cü ilədək olan dövr üçün Rusiya-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri üzrə imzalanan proqram sənədi özündə 5 “yol xəritəsi”ni ehtiva edir ki, buraya da ticarətin və qarşılıqlı sərmayələrin həcminin artırılması, nəqliyyat potensialının inkişafı, birgə müəssisələrin yaradılması, rəqəmsallaşma sahəsində, büdcə-vergi sektorunda təcrübə mübadiləsi, həmçinin humanitar əlaqələr daxildir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyasına səfəri zamanı diqqət mərkəzində olan məsələlərdən biri də humanitar və təhsil sahəsində əməkdaşlıq olub. Bu gün məmnunluq hissi ilə qeyd edə bilərik ki, iki ölkə arasında humanitar əlaqələr uğurla inkişaf edir. Xüsusilə də, təhsil sahəsində intensiv təmaslar mühüm əhəmiyyətə malikdir. Azərbaycanda 338 məktəbdə tədris rus dilində aparılır, 14 ali məktəbdə rus dilində bölmələr var, 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi pilot layihəsi uğurla həyata keçirilir. Bununla yanaşı, Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları Azərbaycanda uğurla fəaliyyət göstərir. Eyni zamanda, 2019-cu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə həyata keçirilməsinə başlanıb.

Rusiya-Azərbaycan Regionlararası Forumu müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsinə zəmin yaradan unikal platformadır

Azərbaycan ilə Rusiya arasında münasibətlərin yüksələn xətlə inkişafına mühüm töhfələr verən əhəmiyyətli amillərdən biri regionlararası əlaqələrin intensiv xarakter daşımasıdır. Dövlət başçılarının siyasi iradəsi əsasında regionlararası forumların keçirilməsi müstəsna əhəmiyyətə malikdir. Forum işgüzar dairələr arasında birbaşa ünsiyyətin qurulması, qarşılıqlı investisiya fəaliyyətinin genişləndirilməsi, yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından olduqca səmərəli platformadır. Birinci vitse-prezident Mehriban Əliyevanın səfəri zamanı Moskvada keçirilən X Azərbaycan-Rusiya Regionlararası Forumu da əməkdaşlığın genişlənməsi baxımından çox mühüm əhəmiyyətə malikdir. Forumda iştirak edən Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi: “Regionlararası əməkdaşlıq bizim ikitərəfli münasibətlərimizin mühüm tərkib hissəsidir. Azərbaycan Rusiya Federasiyasının 70-dən çox subyekti ilə iqtisadi əlaqə saxlayır. Regionlararası forumların keçirilməsi yaxşı bir ənənəyə çevrilib və regionlararası əlaqələrin genişlənməsi işində mühüm rol oynayır. Keçən ilin sentyabrında Bakıda bundan əvvəlki forumun açılışında iki dövlətin başçılarının iştirakı regionlararası əməkdaşlığa ali səviyyədə əhəmiyyət verilməsinə dəlalət edir. Budəfəki forum çərçivəsində rəqəmsallaşma, kənd təsərrüfatı, turizm sahələrində, humanitar sahədə ikitərəfli qarşılıqlı fəaliyyətin perspektivləri ətraflı müzakirə edilib. Ümidvaram ki, əvvəlki illərdə olduğu kimi, bu forumun da nəticələri bizim ikitərəfli münasibətlərin möhkəmlənməsinə öz töhfəsini verəcək”.

Hazırda iki ölkənin ayrı-ayrı regionları arasında əlaqələr kifayət qədər yüksək səviyyədədir. Azərbaycanın və Rusiyanın regionları arasında əlaqələrin intensivləşməsi və yeni istiqamətləri əhatə etməsi üçün hər iki ölkənin müvafiq qurumları tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Yəni ölkələrimiz arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün kompleks işlər görülür. Rusiya Federasiyasında Azərbaycanın ticarət nümayəndəliyinin yaradılması, Həştərxanda Azərbaycan Biznes Mərkəzinin, Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması, qarşılıqlı ticarət missiyalarının həyata keçirilməsi və şirkətlərin ölkələrimizdə keçirilən beynəlxalq sərgilərdə iştirakı belə tədbirlərdəndir. Bunlarla yanaşı, qarşılıqlı investisiya qoyuluşu sahəsində də fəal əməkdaşlıq həyata keçirilir. Tərəflər ticarət və investisiya qoyuluşu sahələrində əməkdaşlığın davam etdirilməsində maraqlıdırlar. Bu kontekstdə Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan İşgüzar Şuraları da əhəmiyyətli rol oynayır, həmçinin sənaye, energetika, turizm, nəqliyyat, kənd təsərrüfatı, İKT və digər sahələrdə geniş əməkdaşlıq imkanları mövcuddur. Beləliklə, Rusiya və Azərbaycanın regionları, işgüzar dairələri və təşkilatları arasında praktik əməkdaşlığın genişlənməsində əsas rol Rusiya-Azərbaycan Regionlararası Forumuna məxsusdur.

Mehriban xanım Əliyevanın “Dostluq” ordeni ilə təltif edilməsi Onun Rusiya-Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətinə verilən yüksək qiymətdir.

Nəticə etibarilə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın noyabrın 21-də Rusiya Federasiyasına rəsmi səfəri iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafına mühüm töhfədir. Yeri gəlmişkən, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü zamanı da bu məsələlər diqqət mərkəzində olub. Görüş zamanı Vladimir Putinin Rusiya-Azərbaycan münasibətlərinin inkişafı və möhkəmləndirilməsində göstərdiyi xidmətlərə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya “Dostluq” ordenini təqdim etməsi xüsusi qeyd edilməlidir. Bu, Mehriban xanım Əliyevanın fəaliyyətinin beynəlxalq müstəvidə yüksək dəyərləndirilməsinin daha bir bariz nümunəsidir. Sirr deyil ki, Mehriban xanım Əliyeva ölkəmizi beynəlxalq miqyasda layiqincə təmsil edən, öz fəaliyyəti ilə Azərbaycanın davamlı inkişafına müstəsna töhfələr verən ictimai-siyasi xadim kimi tanınır. Mehriban xanım Əliyevanın fəaliyyəti həm ölkə miqyasında, həm də beynəlxalq müstəvidə olduqca yüksək qiymətləndirilir. Bunun göstəricisidir ki, Mehriban xanım Əliyeva indiyədək mədəniyyətin təbliği və beynəlxalq mədəniyyət mübadiləsi, elm, səhiyyə, idman, təhsil, texnologiya və ekologiyanın inkişafı işinə verdiyi töhfəyə, həmçinin ictimai, sosial və mədəni həyatda fəal iştirakına, cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələrə, mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə müxtəlif nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb. Təltif olunduğu çoxsaylı nüfuzlu beynəlxalq mükafatlar - Fransanın “Şərəf legionu” ordeni, UNESCO-nun “Qızıl Motsart” medalı, Rusiyanın Yüzillik Mesenatları Beynəlxalq Xeyriyyə Fondunun “Yaqut xaç” ordeni, II dərəcəli Müqəddəs Məlaksima Knyaginya Olqa ordeni və digərləri onun dünyadakı nüfuzunun göstəricisidir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya Federasiyasının dövlət mükafatı - “Dostluq” ordeni ilə təltif edilməsi isə Onun Rusiya-Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətinə verilən yüksək qiymətdir.

# Azərbaycan qarşıdakı illərdə də sabitlik, inkişaf və tərəqqi yolu ilə inamla addımlayacaq

*Milli Məclisin deputatı Pərvin Kərimzadənin yap.org.az-a müsahibəsi*



***- Pərvin xanım, hazırda cəmiyyətimizdə əsas müzakirə mövzularından biri 2020-ci ilin dövlət büdcəsi ilə əlaqədardır. Bu baxımdan, gələn ilin büdcəsini necə dəyərləndirirsiniz?***

- Ölkəmiz ildən-ilə güclənir, sürətlə inkişaf edir. Aparılan iqtisadi siyasət sayəsində Azərbaycanın makroiqtisadi inkişafında dayanıqlıq təmin edilib. İnkişafın və çoxsaylı nailiyyətlərin nəticəsi olaraq iqtisadiyyatda əldə edilmiş sıçrayış Azərbaycanın keyfiyyətcə yeni, modernləşmə mərhələsinə qədəm qoymasına səbəb olub. Ardıcıl həyata keçirilən islahatların iqtisadi potensialı daha da möhkəmləndirməsi sayəsində Dünya Bankının son hesabatında Azərbaycan dünyanın 20 ən islahatçı ölkələr sırasında yer alıb. “Ən islahatçı” ölkə imicini qazanan Azərbaycan əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də iqtisadiyyatın inkişaf dinamikasını saxlamağa müvəffəq olub.

Bu ilin fevral ayında Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə dövlət başçısı ötən son 3 ilin göstəricilərini dəyərləndirərkən 2017-ci ili iqtisadi sabitləşmə ili, 2018-ci ili dərin iqtisadi islahatlar ili adlandıraraq, 2019-cu ili həm böyük sosial islahatlar ili, həm də iqtisadi artımın yüksək templərlə təmin ediləcəyi dövr kimi qiymətləndirdi. Ötən illərin davamı kimi 2020-ci ildə də büdcənin sosialyönümlülüyü təmin ediləcək, əməyin ödənişi, təqaüdlər, sosial müavinətlər, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının yaradılması prioritet xərc istiqamətlərindən olacaq. Bütövlükdə, bundan sonra da, o cümlədən, gələn ildə də müstəqil Azərbaycan sabitlik, inkişaf və tərəqqi yolu ilə inamla addımlayacaq. Ölkənin artan iqtisadi qüdrəti, aparılan ciddi iqtisadi islahatlar sosial islahatların dərinləşməsi bunun proqnozunu verir.

***- Büdcədə elm və təhsil sahəsinə ayrılan vəsaitlə bağlı nə deyə bilərsiniz? Artım bu sahələrin inkişafına nə dərəcədə təsir göstərəcək?***

- Hər bir dövlətin uğurlu dövlət siyasəti elmi prinsiplərə söykənir. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən yeni nəfəs gətirilərək uğurla həyata keçirilən müstəqil Azərbaycanın dövlət siyasətinin kökündə də elmi prinsiplər dayanır. Ölkəmizdə elm və təhsil sektoruna dövlət tərəfindən göstərilən diqqət və qayğı nəticəsində son illər elmdə, təhsildə və intellektual fəaliyyətin bütün sahələrində əhəmiyyətli dönüşə nail olunub. Elm və təhsi sahəsində qarşıya qoyulan böyük hədəflər tariximizdə yüksək inkişaf, bütün sahələrdə islahatların daha da dərinləşməsi dövrü kimi xarakterizə olunur.

Təhsilə dövlət qayğısı hər zaman dövlət büdcəsində də öz əksini tapır. 2020-ci ildə təhsilin ən ali səviyyədə inkişafı üçün dövlət büdcəsindən təhsil xərclərinə 3155,8 milyon manat vəsait ayrılıb ki, bu da, 2019-cu ilə nisbətən 873,6 milyon manat çoxdur. Təhsillə elm bir-birinə bağlıdır. Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərim əmək haqqlarının artırılması, təhsilin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən islahatlar, bir sözlə təhsilə artan qayğı elmin də inkişafına, tərəqqisinə zəmin yaradır.

***- 2020-ci ilin dövlət büdcəsi sosialyönümlü olması ilə də səciyyələnir. Bu fakt əhalinin rifah halının daha da yüksəlməsində nə dərəcədə rol oynayacaq?***

- 2017-ci ildə iqtisadi sahədə atılan addımlar 2018-ci ildə keçirilən prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə təkan verdi. Sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından 2019-cu il əvvəlki illərdən fərqləndi. İlin əvvəlindən başlayaraq sosial-iqtisadi sferada baş verən köklü və sistemli dəyişikliklər ölkə Başçısının cari il ərzində təqdim etdiyi iki sosial paket əhalinin maddi durumunun yaxşılaşmasına xidmət etdi. Bir-birinin ardınca atılan sosial paketlər yüksək səviyyədə reallaşması ölkədə sosial inkişafı, sosial rifahın yüksəldilməsini təmin etdi. Təkcə 2019-cu ildə minimum əməkhaqqı və sosial müavinətlər iki dəfə, minimum pensiya 70 faiz artırıldı, iki sosial paketin əhatə dairəsi 4,2 milyon vətəndaşı əhatə etdi.

İqtisadi sabitləşmə ilindən böyük sosial islahatlar dövrünə addımlayan Azərbaycanda həyata keçirilən müstəqil siyasət, dərin islahatlar, yüksələn reytinq, kompleks islahatlar, möhkəm iqtisadi təməl 2020-ci ildə inkişafın davamlılığına təkan verdi. Prezident İlham Əliyevin yeni iqtisadi strategiyasının formalaşdırdığı möhkəm təməl sayəsində Azərbaycan müstəqillik tarixində ən böyük büdcə layihəsinin hazırlanmasına zəmin yarandı. 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair I Dövlət Proqramının icrasına başlayarkən Azərbaycan 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib idisə, son 15 ildə bu ehtiyatlar 27-28 dəfə artırılıb. Bu da büdcə xərclərinin 39,5 faizinin sosial sahəyə ayrılmasına, yəni sosial müdafiə xərclərinə ayrılan vəsaitin 31,3 faiz artırılmasına səbəb olub.

2020-ci il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri üçün 8402,3 milyon manat vəsait nəzərdə tutulub. Ən əsası isə dövlət büdcəsi ölkənin regionlarının sosial-iqtisadi inkişafı, regionlarda yaşayan əhalinin əmək vərdişlərinə uyğun iqtisadi fəaliyyət sahələrinin dirçəldilməsinə şərait yaradacaq. Belə ki, 2020-ci ildə 200 minə yaxın yeni iş yerinin yaradılması məşğulluq probleminin həll edilməsinə yeni təkan olacaq.

Nəzərə alsaq ki, yeni iş yerlərinin böyük əksəriyyəti regionlarda açılacaq, bu ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımların bəhrəsinin sübutu, dövlətin iqtisadi qüdrətinin yüksəlməsinin daha bir təzahürüdür.

# “Xalq Sizi dəstəkləyir”

## *“91-lər”in bir qrup üzvü ölkə Prezidenti İlham Əliyevə müraciət ünvanlayıb*

***“91-lər”in bir qrup üzvü ölkə Prezidenti İlham Əliyevə “Xalq Sizi dəstəkləyir” adlı müraciət ünvanlayıb. Xatırladaq ki, Azərbaycan xalqının istəyini əks etdirən 91 nəfər ziyalı 1992-ci il oktyabrın 16-da “Səs” qəzeti vasitəsilə Dahi Öndər Heydər Əliyevə “Azərbaycan Sizin sözünüzü gözləyir” müraciəti ünvanlamışdır. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyev ziyalıların müraciətinə 1992-ci il oktyabrın 24-də “Yeni, müstəqil Azərbaycan uğrunda” cavabında ziyalıların müraciətində qaldırılan məsələlərə özünün inamını ifadə etmişdir. Əgər o zaman “91-lər” Ulu Öndər Heydər Əliyevə müraciətlərində ölkəni düşdüyü ağır, böhranlı vəziyyətdən çıxarmağı xahiş edirdilərsə, bu gün bir qrup ziyalının Prezident İlham Əliyevə ünvanladığı müraciətində, aparılan düzgün, məqsədyönlü siyasətin birmənalı şəkildə dəstəkləndiyi və hər zaman Onun arxasında duracaqları qeyd olunub. Müraciəti olduğu kimi qeyd edirik.***


Azərbaycan Respublikasının Prezidenti
Zati- aililəri
cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident,**

**Əziz Sədrimiz!**

Biz - Yeni Azərbaycan Partiyasının yaradılması üçün Ulu Öndərimizə müracia edən, “91-lər”-in bir qrupu bu gün Sizə - doğma partiyamızın Sədrinə, Azərbayca Respublikasının Prezidentinə üz tutur, Sizin şəxsinizdə bütün xalqımıza müracia edirik:

Son illər Sizin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın fədakar v səmərəli siyasi fəaliyyəti, müdrik rəhbərliyi, xalqımızın yorulmaz əməksevərli sayəsində gündən-günə inkişaf edən, daim çiçəklənən ölkəmizin nəhəng uğurla bəzi üzdəniraq adamların dincliyini pozmuş, yuxusunu qaçırmışdır. Bəzilə xəbislikdən, xüsusi ilə paxıllıqdan xarici ölkələrə sığınmış, orada da çirkin əməlləri davam etdirərək böhtanla və siyasi avantüra ilə məşqul olaraq Azərbaycanımızı v onun rəhbərlərini şərləmək, gözdən salmaq yolunu tutmuşlar. Biz həmin səxslərə v onlara buradan fitva verən bəzi nankor havadarlarına ölkəmizin ab-havasını, vətə torpağının müqəddəsliyini haram bilir, və uca səslə “Ar olsun” deyirik!

Onu da vurğulayırıq ki, həmin bəd xislətli ünsürlər, xaricdəki vətən satqınları gec-tez öz cəzalarına çatacaqlar. Ulu Tanrının özü onları cəzalandıracaqd Bununla belə biz bu məqamlarda öz haqq səsimizi ucaltmağı özümüzə vətəndaş borcu bilirik.

Ulu Öndərin silahdaşları “91-lər” və bizimlə bərabər yüz minlərlə Ye Azərbaycanlılar burada və Avropaya sığınan “söyüş müxalifəti”nə (əsl müxali obyektiv, ədalətli olar, şərə, böhtana əl atmaz) iki böyük rus ədibi - M. Qorki ilə Çexov arasında olan bir söhbəti nümunə göstərmək istəyirik. Qoy onlar iki böyük əd arasında olmuş bu dialoqdan ibrət götürsünlər:

Bir gün evdə öz çarpayısında xəstə yatan A. Çexova M. Qorki baş çəkmə gedir. Söhbət əsnasında M. Qorki A. Çexova deyir: “Anton Pavloviç, bəzi mətbu səhifələrində Sizi yaman tənqid və təhqir edirlər”. A. Çexov halını pozmada “Maksim Maksimoviç, mən onları bilirsiniz nəyə bənzədirəm?”. “Nəyə?”-deyə Qorki maraq içində soruşur. “Ucsuz-bucaqsiz, bərəkətli tarlada işləyib şum çıxarda zəhmət təri tökən bir köhlən atın uzərinə qonan murdar milcəklərə...Mən əsərlərim, yazıb-yaratdıqlarım əsrlərlə yaşayacaqdır...elə mığmığalar, milcəklər gəldi-gedərdi. Onların son yerləri tarixin tullantılarla dolu ufunətli zibil qutu olacaqdır”. M. Qorki böyük dostunun-nəhəng ədib A.Çexovun müdrik cavab məmunluqla gülümsəyir...

<u>*Azərbaycan Respublikasının Prezidenti*</u>
<u>*Zati-Aliləri Cənab*</u> ***İLHAM ƏLİYEVƏ***

Möhtərəm Cənab Prezident,
Əziz Sədrimiz!

Biz - Yeni Azərbaycan Partiyasının yaradılması üçün Ulu Öndərimizə müraciət


“91-lər”-in bir qrup üzvü

1. Vilayət Əliyev --- əməkdar elm xadimi, elmlər doktoru,professor
2. Tahir Məmmədov --- fəlsəfə doktoru, əməkdar jurnalist
3. Munis Bayramov --- 3 dərəcəli “Vətənə xidmətə görə” ordenli
4. Xeyrəddin Qoca --- yazıçı- publisist
5. Sudeyf İmamverdiyev --- AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor
6. Novruz Quliyev --- AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor
7. Əlişir Musayev --- AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor
8. Şahlar Əsgərov --- əməkdar elm xadimi, elmlər doktoru, professor
9. Zahid Xəlilov --- elmlər doktoru, professor
10.Ədalət Fərəcov --- elmlər doktoru, professor
11.Hacıbala Abutalıbov --- elmlər doktoru, professor
12.Nəbi Əsgərov --- elmlər doktoru, professor

edən, “91-lər”in bir qrupu bu gün Sizə - doğma partiyamızın Sədrinə, Azərbaycan Respublikasının Prezidentinə üz tutur, Sizin şəxsinizdə bütün xalqımıza müraciət edirik:

Son illər Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fədakar və səmərəli siyasi fəaliyyəti, müdrik rəhbərliyi, xalqımızın yorulmaz əməksevərliyi sayəsində gündən-günə inkişaf edən, daim çiçəklənən ölkəmizin nəhəng uğurları bəzi üzdəniraq adamların dincliyini pozmuş və yuxusunu qaçırmışdır. Bəziləri xəbislikdən, xüsusi ilə paxıllıqdan xarici ölkələrə sığınmış, orada da çirkin əməllərini davam etdirərək böhtanla və siyasi avantüra ilə məşğul olaraq Azərbaycanımızı və onun rəhbərlərini şərləmək, gözdən salmaq yolunu tutmuşlar. Biz həmin şəxslərə və onlara buradan fitva verən bəzi nankor havadarlarına ölkəmizin ab-havasını, vətən torpağının müqəddəsliyini haram bilir, və uca səslə “Ar olsun” deyirik!

Onu da vurğulayırıq ki, həmin bəd xislətli ünsürlər, xaricdəki vətən satqınları da gec-tez öz cəzalarına çatacaqlar. Ulu Tanrının özü onları cəzalandıracaqdır! Bununla belə, biz bu məqamlarda öz haqq səsimizi ucaltmağı özümüzə vətəndaşlıq borcu bilirik.

Ulu Öndərin silahdaşları “91-lər” və bizimlə bərabər yüz minlərlə Yeni Azərbaycanlılar burada və Avropaya sığınan “söyüş müxalifəti”nə (əsl müxalifət obyektiv, ədalətli olar, şərə, böhtana əl atmaz) iki böyük rus ədibi - M.Qorki ilə A.Çexov arasında olan bir söhbəti nümunə göstərmək istəyirik. Qoy onlar iki böyük ədib arasında olmuş bu dialoqdan ibrət götürsünlər.

Bir gün evdə öz çarpayısında xəstə yatan A.Çexova M.Qorki baş çəkməyə gedir. Söhbət əsnasında M.Qorki A.Çexova deyir: “Anton Pavloviç, bəzi mətbuat səhifələrində Sizi yaman tənqid və təhqir edirlər”. A.Çexov halını pozmadan: “Maksim Maksimoviç, mən onları bilirsiniz nəyə bənzədirəm?” “Nəyə?”- deyə M.Qorki maraq içində soruşur. “Ucsuz-bucaqsız, bərəkətli tarlada işləyib şum çıxardan, zəhmət təri tökən bir köhlən atın uzərinə qonan murdar milçəklərə. Mənim əsərlərim, yazıb-yaratdıqlarım əsrlərlə yaşayacaqdır, elə mığmığalar və milçəklər isə gəldi-gedərdi. Onların son yerləri tarixin tullantılarla dolu üfunətli zibil qutuları olacaqdır”. M.Qurki böyük dostunun-nəhəng ədib A.Çexovun müdrik cavabına məmnunluqla gülümsəyir...

Dahi rus ədibinin bu sözləri ölkəmizin böyük inkişafına böhtan, çirkab dolu nəzərlərlə baxan, nadürüstcəsinə su bulandırıb, ov ovlamaq istəyən bir para ünsürlərin əməllərinə necə də uyğun gəlir!

Özlərində xalq adamı brendini yaratmaq xülyasına düşən bu millət “qayğıkeş”lərinə, antimilli qruplara qoşulan bəzi həmvətənlərimizə demək istəyirik ki, adlarını çəkdiyimiz bu kəslər və onların ardınca düşənlər, artıq həyatın real səhnəsində çoxdan autsayderə çevrilən primitiv və sönmüş siyasi obrazlardır.

Onu da qeyd etmək yerinə düşər ki, hələ partiyamızın ilk yarandığı dövrdə Ümummilli Liderimiz Heydər Əliyevə qarşı qoyulan yaş senzi məsələsi gündəmə gələndə, bizlər də mitinqlər keçirmişik. O zaman bizə haranı göstərirdilər, ora gedirdik. Amma bugünkü ərköyün, hamıya meydan oxuyan impulsiv müxalifət mitinq üçün ölkə paytaxtının mərkəzində sabitliyi pozmaq üçün insanların ən çox istifadə etdikləri yeri - “28 May” metrosunun ətrafını seçir! Məgər Qaradağ rayonu ərazisində danışmaq, söz demək və çıxış eləmək olmazmı?! Budur əsl siyasi cığallıq! Məğlub olmamaq üçün bu mitinqləri özlərinə yeganə yol seçən o kəslərə daha heç nə demir, üzümüzü xalqımıza tuturuq:

Əziz xalqımız, mitinq hərisliyi ilə tərəfdarlarını küçələrə səsləyən o adamlara öz yerlərini göstərin! Dünya şöhrətli Ulu Öndərimiz Heydər Əliyevin qurub ərsəyə gətirdiyi, ölkələr içində adı-sanı olan müstəqil dövlətimizi və dövlətçiliyimizi qoruyun. Vətənimizin inkişafı və çiçəklənməsi üçün gecəgündüz çalışıb böyük işlər görən, ölkəmizi dünyanın öncülləri sırasına çıxaran Prezidentimiz İlham Əliyevin ətrafında birləşin! Bu üzdəniraq demokratların - AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə 1992-93 illərdə vətənimizin və xalqımızın başına gətirdiyi o dəhşətləri unutmayın!

**Möhtərəm Cənab Prezident!**

Sizə mətbuat vasitəsi ilə müraciət etməkdə məqsədimiz, Sizi - xalqımızın böyük oğlunu bir daha əmin etməklə, ölkə vətəndaşlarına da bu siyasi ismarıcımızı çatdırmaqdır:

Ulu Öndərimiz Heydər Əliyevin sadiq silahdaşları olan “91-lər”, o dövrdə olduğu kimi, bu gün də, Sizin arxanızdadır. Bütün qədirbilən xalqımız kimi daim Sizinlə birlikdəyik!

*Şəxsiyyətinizə dərin hörmət və ehtiramla,*

<u>“91-lər”-in bir qrup üzvü</u>

1. Vilayət Əliyev - əməkdar elm xadimi, elmlər doktoru, professor
2. Tahir Məmmədov - fəlsəfə doktoru, əməkdar jurnalist
3. Munis Bayramov - 3 dərəcəli “Vətənə xidmətə görə” ordenli
4. Xeyrəddin Qoca - yazıçı-publisist
5. Sudeyf İmamverdiyev - AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor
6. Novruz Quliyev - AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor
7. Əlişir Musayev - AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor
8. Şahlar Əsgərov - əməkdar elm xadimi, elmlər doktoru, professor
9. Zahid Xəlilov - elmlər doktoru, professor
10. Ədalət Fərəcov - elmlər doktoru, professor
11. Hacıbala Abutalıbov - elmlər doktoru, professor
12. Nəbi Əsgərov - elmlər doktoru, professor
13. Maqsud Nəcəfov - elmlər doktoru, professor
14. Vüqar Rəhimzadə - elmlər doktoru, əməkdər jurnalist
15. İsgəndər Quliyev - elmlər doktoru, dosent
16. Rizvan Cəbiyev - əməkdar jurnalist, keçmiş millət vəkili
17. Hacan Hacıyev - fəlsəfə doktoru, keçmiş səfir
18. Allahverdi Hacıyev - fəlsəfə doktoru, əməkdar müəllim

***Bakı şəhəri***
***30 oktyabr 2019-cu il***


“91-lər”-in bir qrup üzvü

1. Vilayət Əliyev --- əməkdar elm xadimi, elmlər doktoru,professor
2. Tahir Məmmədov --- fəlsəfə doktoru, əməkdar jurnalist
3. Munis Bayramov --- 3 dərəcəli “Vətənə xidmətə görə” ordenli
4. Xeyrəddin Qoca --- yazıçı- publisist
5. Sudeyf İmamverdiyev --- AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor
6. Novruz Quliyev --- AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor
7. Əlişir Musayev --- AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor
8. Şahlar Əsgərov --- əməkdar elm xadimi, elmlər doktoru, professor
9. Zahid Xəlilov --- elmlər doktoru, professor
10.Ədalət Fərəcov --- elmlər doktoru, professor
11.Hacıbala Abutalıbov --- elmlər doktoru, professor
12.Nəbi Əsgərov --- elmlər doktoru, professor

# Dövlət sərhədindən buraxılış məntəqələrindəki mövcud vəziyyətlə əlaqədar xidməti müşavirə keçirilib

***Noyabrın 25-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəhbərliyinin, DSX Sərhəd Nəzarətinin vəzifəli şəxslərinin və sərhəd nəzarəti məntəqələrinin rəislərinin iştirakı ilə dövlət sərhədindən buraxılış məntəqələrində mövcud vəziyyətlə əlaqədar xidməti müşavirə keçirilib.***

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, DSX rəisi general-polkovnik Elçin Quliyev xidməti müşavirədə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə görülmüş işlər nəticəsində son illər xarici ölkələrlə sosial-iqtisadi münasibətlərin inkişafı, qarşılıqlı faydalı ticarət əlaqələrinin genişləndirilməsi və ölkəmizə turizm axınının artması ilə əlaqədar dövlət sərhədindən buraxılış məntəqələrindən keçən şəxslərin və nəqliyyat vasitələrinin sayının ciddi artımı şəraitində DSX-nin sərhəd nəzarətinin xidməti fəaliyyətinin daha da gücləndirilməsinin mühüm əhəmiyyət kəsb etməsini vurğulayıb.

Müşavirdə dövlət sərhədindən buraxılış məntəqələrinin fəaliyyətinin statistik göstəricilərində müsbət dinamikanın müşahidə olunması, bu nailiyyətlərin qazanılmasında həyata keçirilmiş islahatların və struktur dəyişikliklərin mühüm rol oynaması vurğulanıb.

Belə ki, cari ildə 15 milyon 612 min 117 şəxs (2018-ci illə müqayisədə 11 faiz çox) və 1 milyon 960 min 403 nəqliyyat vasitəsi (12 faiz çox) dövlət sərhədindən buraxılıb. Saxta və özgəsinə məxsus sənədlərlə dövlət sərhədindən keçməyə cəhd edən 505 nəfər, axtarışda olduğuna görə 4458 nəfər saxlanılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqları əsasında DSX əməkdaşlarının sosial-məişət vəziyyətinin gücləndirilməsinin, şəxsi heyətin pul təminatının artırılmasının, sərhəd nəzarəti məntəqələrinin hərbi qulluqçuları üçün əlavə maliyyə vəsaitlərinin ayrılmasının sərhədçilərin xidmətinə ən yüksək səviyyədə göstərilən ali diqqət və qayğının ifadəsi olması bildirilib.

Sərhəd nəzarəti məntəqələrinin fəaliyyətində əldə olunmuş nailiyyətlərin qorunub saxlanılmasının və daha da artırılmasının mühümlüyü xüsusi vurğulanıb. Sərhəd nəzarətinin vəzifəli şəxslərinin məruzələri, o cümlədən dövlət sərhədindən keçən şəxslər və nəqliyyat vasitələri üzərində sərhəd nəzarətinin keçirilməsi müddətlərinin maksimal azaldılması və sürətli keçidinin təmin olunmasına dair təklifləri dinlənilib, xidməti fəaliyyətin təkmilləşdirilməsi məsələləri müzakirə edilib.

Dövlət sərhədindən buraxılış məntəqələrində etik davranış qaydalarının və vətəndaşların hüquqlarının pozulması, onlara qarşı kobudluq edilməsi, korrupsiya hallarına və xidməti pozuntulara qarşı ciddi mübarizə aparılması, təkcə cari il ərzində xidmətlərində yol verdikləri nöqsanlara görə 55 hərbi qulluqçunun sərhəd nəzarəti sahəsindən kənarlaşdırılması qeyd olunub.

Xidməti müşavirədə DSX-nin Sərhəd Nəzarətinin "Şıxlı" sərhəd nəzarəti məntəqəsinin rəisi polkovnik-leytenant Gündüz Qafarov xidməti fəaliyyətində yol verdiyi nöqsanlara görə vəzifəsindən kənarlaşdırılıb. Müşavirənin sonunda normativ-hüquqi aktların və rəhbər sənədlərin tələblərinə riayət olunması, dövlət sərhədindən buraxılış məntəqələrində xidmətə nəzarətin daha da gücləndirilməsi istiqamətində əlavə tapşırıqlar verilib.

# Moskvada MDB İnformasiya Agentlikləri Rəhbərləri Şurasının iclası keçirilib

***Moskvada Rusiyanın TASS agentliyinin təşkilatçılığı ilə MDB Ölkələri İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXVII iclası keçirilib. Üzv agentliklər tərəfdaşlıq əlaqələrinin inkişafını, Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə həsr olunan layihələri və hazırlıq işlərini müzakirə ediblər.***

TASS agentliyinin baş direktoru, İnformşuranın sədri Sergey Mixaylov Qələbənin gələn il qeyd ediləcək 75 illiyinə üzv agentliklərin də hazırlaşdığını, bu təntənəli hadisənin özəlliklərini nümayiş etdirən layihələr hazırlandığını diqqətə çatdırıb. O, TASS-ın bu təqvim ilə əlaqədar arxiv şəkillərdən ibarət böyük fotosərgi təşkil edəcəyini bildirib.

TASS-ın baş direktorunun birinci müavini Mixail Qusmanın təklifi ilə üzv agentliklərin də qatılacağı "Mətbuat müharibədə" adlı layihə icra olunacaq. Birgə layihə arxiv fotoları və cəbhədə informasiya işi ilə məşğul olan jurnalistlər barədə məlumatları bir yerə toplamağa imkan verəcək.

İclasda Belarusun BelTA agentliyinin baş direktoru İrina Akuloviç, Özbəkistanın UzA agentliyinin baş direktoru Abdusaid Kuçimov və digər agentliklərin rəhbərləri çıxış edərək görəcəkləri işlər barədə məlumat veriblər.



İclasda MDB İcraiyyə Komitəsinin nümayəndəsi Aleksandr Zavarzin də təmsil etdiyi strukturun Qələbənin 75 illiyinə hazırlığı barədə danışıb.

AZƏRTAC-ın bu əlamətdar hadisəni geniş işıqlandıracağını deyən İdarə Heyətinin sədri Aslan Aslanov Azərbaycanda da bu böyük tədbirə hazırlıq işlərinin görüldüyünü bildirib. İdarə Heyətinin sədri İnformşuranın gələn ilin martında AZƏRTAC-ın 100 illik yubileyi çərçivəsində Bakıda keçirilməsini təklif edib. Şura növbəti XXVIII iclasın Azərbaycanda təşkil edilməsini dəstəkləyib. İclas iştirakçıları üçün TASS-ın baş ofisində ekskursiya təşkil edilib, qonaqlar xəbərlər departamenti, muzey və konfrans zalı ilə tanış olublar.



# Əli İnsanovun "HƏP"i-gopu və məzara doğru yürüşü

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

Məlum olduğu kimi, sabiq səhiyyə naziri Əli İnsanov özü kimi korrupsiyaya bulaşmış, xain və qədirbilməzlər kütləsini ətrafına yığmaqla, sözdə "Haqq və Ədalət Partiyası" ("HƏP") adlı qondarma dərnək yaradıb. Daha dəqiq desək, bu adamın ətrafındakıların bəziləri, uzun illər etimad göstərilmiş şəxslər olublar ki, sonradan həmin etimaddan sui-istifadə etməklə, sözün əsl mənasında, xalqı çapıb-talayıblar. Nəticədə, vəzifələrindən və malik olduqları mövqelərindən, haqlı olaraq, uzaqlaşdırılan bu ünsürlər indi də durub hansısa haqdan-ədalətdən dəm vurmaqla "HƏP"ə - gopa basırlar. Əslində, ayağının biri burada, digəri gorda olan İnsanovun özü ilə bərabər özükimilərini də siyasi məzara doğru dartması təəccüb doğurmur. Necə deyərlər, gora gedən özü ilə yoldaş aparır. Bu səbəbdən, eks-nazirin həndəvərində İsfəndiyar Vahabzadənin, eləcə də, digər sabiqlərin olması reallıqda onların ifşası prosesini sürətləndirir. Yəni daha dəqiq məlum olur ki, onlar kimlərdir və hansı "məzhəbə" qulluq edirlər. Qısası, özlərini zorla xalqa sırımağa çalışan bu kiçik kütlə hələ də anlamaq iqtidarında deyil ki, xalq onları qəbul etmir, əksinə, rədd edir. Axı xalqın nəyinə lazımdır ki, vaxtilə onu aşağılayan, təhqir edən gestapo xarakterli bir ünsür siyasi arenaya çıxıb, öz "siyasi maraqlarını" diktə etsin? Xalqa bu, ümumiyyətlə, maraqlı deyil, əksinə, xalq bu ünsürün hərəkətlərini görüb, ona daha çox nifrət edir. Necə ki, əvvəllər də bu nifrət mövcud olub.

Təkcə bir neçə fakta diqqət yetirək - bu şəxs uzun illər dövlət qulluğunun ən yüksək mövqeyində təmsil olunub və sonradan daxilindəki kirli arzuları onu xəyanətkara çevirib. Ə.İnsanovun ifşası zamanı, yəni həbs olunduğu dövrlərdə onun bağlarından, mülklərindən nə qədər ləl-cəvahiratın, valyutaların çıxdığını da kimsə unutmayıb. Bu fərd həbsxanadan çıxdıqdan sonra, açıq-aydın şəkildə etiraf etdi ki, Qərbin ermənipərəst dairələri ona himayədarlıq edir. O cümlədən, bu yaxınlarda müxalifətin radikal qanadı ilə təmasa keçməklə, özünü əz qala "lider" kimi təqdim etməyə çalışdı. Amma bütün bunlara baxmayaraq, fakt öz faktlığında qalır və söz yox ki, bunları da, bilənlər çox yaxşı bilir və yadından çıxarmır.

İndi hansı üzlə, hansı cəsarətlə Əli İnsanov və yan-yörəsi utanıb-qızarmadan çıxır cəmiyyət işinə və iddialarını partiya yaratmaqla önə sürür? Məgər onun özü və ətrafı bilmirmi ki, onların bu cəhdləri əbəsdir və nəticəsiz qalacaq? Əlbəttə ki, bilir. Sadəcə, ona və xain yandaşlarına Qərbin müəyyən erməniperəst dairələrindən növbəti tapşırıq verilib - yerlibazlıq və digər xisltələri işə salmaqla, ölkədə ayrıseçilik, ictimai-siyasi sabitliyi pozmaqla itaətsizlik mühiti yaratmaq və s.

Amma xalq heç vaxt belə ünsürlərin arxasınca getməyib, əksinə, beləlləri baş qaldırmağa çalışarkən, başlarından basaraq, yerlərinə otuzdurub. Bu dəfə də belə olacaq. Ə.İnsanov, İ.Vahabzadə və sairləri bunu dərk etməyə məhkumdurlar. Onların yerləri siyasi məzarlıqdır ki, sabiq nazir də yalnız bu vəzifəsinin öhdəsindən gələ bilir - özü ilə bərabər ətrafındakıları da gora doğru sürükləyir - "HƏP"ə-gopa basmaqla...

# XİN: N.Paşinyanın "Corriere della Sera" qəzetinə müsahibəsini növbəti populist açıqlama kimi qiymətləndirmək olar

Ermənistan baş naziri N.Paşinyanın İtaliyanın "Corriere della Sera" qəzetinə müsahibəsini növbəti populist açıqlama kimi qiymətləndirmək olar. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan baş nazirinin İtaliyanın "Corriere della Sera" qəzetinə müsahibəsində söylədiklərinin şərh edilməsi ilə bağlı KİV-in müraciətinə cavabında bildirib.

Leyla Abdullayeva deyib: "N.Paşinyan müsahibəsində "ermənifobiya" fenomenindən danışaraq həqiqətlə heç bir əlaqəsi olmayan və yalan nümunələr sadalayır. Belə ki, o, UEFA-nın Avropa Liqasının Bakıda keçirilmiş final oyununda guya ki, H.Mxitaryanın erməni olduğu üçün iştirak edə bilmədiyini bildirir. Xatırlatmaq istərdik ki, Azərbaycan tərəfindən bu il mayın 29-da UEFA Avropa Liqasının Bakıda keçirilmiş final oyununda iştirak edən bütün oyunçuların, o cümlədən Arsenal futbol klubunun oyunçusu H.Mxitaryanın, eləcə də bütün pərəstişkarların təhlükəsizliyinin tam şəkildə təmin olunacağı barədə məlumat verilmişdir. Azərbaycan tərəfindən zəmanət verildiyi halda Avropa Liqasının Bakıdakı final oyununda H.Mxitaryan şəxsi qərarı əsasında iştirak etmədi. Onu da qeyd etmək istərdik ki, bu günə kimi Azərbaycanda keçirilən çoxsaylı idman yarışlarında erməni əsilli idmançılar iştirak ediblər. Hətta dövlət başçısı Avropa oyunları vaxtı erməni mənşəli oyunçunu şəxsən özü mükafatlandırmışdı.



Ermənistan hökumət başçısı başqa bir uydurma ilə çıxış edərək, guya ki, paytaxtımızda erməni musiqisinə qulaq asan sürücünün həbs olunmasına dair növbəti yalan "nümunə" ilə söylədiyi əsassız fikirlərə bəraət qazandırmağa çalışır. N.Paşinyanın müsahibəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikirlərinə gəldikdə isə bildirmək istərdik ki, Azərbaycan Respublikasının Prezidenti cari il oktyabrın 3-də Soçidə keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasında çıxışı zamanı münaqişənin həlli kontekstində fikirlərini birmənalı şəkildə səsləndirib və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalı olduğunu bildirmişdir. Münaqişənin məhz bu əsaslarda həlli bölgəmizə dayanıqlı sülh, sabitlik və tərəqqi gətirəcəkdir".

# Ulu Öndər Heydər Əliyev və Azərbaycanda söz azadlığı

***Ulu Öndər Heydər Əliyev Azərbaycanda söz azadlığı haqqında ideyaları o vaxtlar müstəqil qəzetlərdən birində qarşılaşdığı həqiqətə uyğun olmayan və eyni zamanda, təhqir və böhtan məzmununda həm də milli-mənəvi əsaslarımıza söykənən dövlətçilik siyasətinə və azərbaycançılıq ideyasına əsaslandırır.***

Azərbaycanda söz azadlığı haqqında Heydər Əliyev demişdir: “Azərbaycanda söz azadlığı və mətbuat azadlığı demokratiyanın əsas prinsiplərindən biri olaraq, tam bərqərar olunubdur. Ancaq təəssüflər olsun ki, bəzi qəzetlər, ayrı-ayrı şəxslərə mənsub olan qəzetlər, yaxud müstəqil qəzetlər və müxtəlif partiyalara mənsub olan qəzetlər Azərbaycanın Konstitusiyasının, Azərbaycanın qanunlarının mətbuat azadlığı və söz azadlığı haqqında yaratdığı şəraitdən sui-istifadə edirlər. Biz qəzetlərdə çox tez-tez ayrı-ayrı insanların təhqir olunması, onların haqqında böhtanlar və yalanlar yazılmasının şahidiyik. Mənim özümü də, Azərbaycan Prezidentini də bəzi hallarda təhqir edirlər, mənə böhtanlar atırlar. Mənim haqqımda müxtəlif uydurmalar yayırlar. Ancaq mən bunlara dözürəm. Dözürəm, ona görə yox ki, mən bunlara qarşı qanun çərçivəsində tədbir görə bilmərəm. Ona görə ki, mən belə yazıların müəlliflərinin hərəkətlərini Azərbaycanın mənəviyyatına, Azərbaycanın dövlətçiliyinə zidd hərəkətlər kimi qəbul edirəm.”

Ulu Öndər Heydər Əliyevin “Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına və məsləkinə müxalifətdə durmasın”, “Ədalətsizliklə ədaləti bərpa etmək olmaz” fikirləri buradan qaynaqlanmaqla bərabər, ölkə vətəndaşlarının, ümumiyyətlə, demokratik ruhda yetişməsini ehtiva edirdi.

Əlbəttə, vətəndaş cəmiyyəti hadisəsini əsas insan azadlıqları və müstəqillik ideyaları təşkil etdiyi üçün güc söz azadlığı, bu istiqamətdə də mətbuat üzərinə düşürdü və Heydər Əliyev yeni qurulan müstəqil respublikamızın idarəçilik siyasətində milli mətbuatın müstəqilliyi, sərbəst fəaliyyətini dəstəkləyir və onun demokratik prinsiplər ruhunda inkişafına çalışırdı.

Həmçinin, Heydər Əliyevin idarəçilik prinsipində milli mətbuatın sistemli irəliləyişi, yalnız vətəndaş cəmiyyətinin tələbləri məzmununda deyil, dövlət siyasətinin üzvü bir parçası olaraq planlaşdırılırdı.

Yüksək intellektual səviyyəyə və zəngin informasiyaya malik dövlət xadimi olan Heydər Əliyev, sözsüzdür ki, informasiya kommunikasiyalarının cəmiyyətə kütləvi təsirindən və hətta bütün dünyada yayılmış sosial kommunikasiya proseslərindən, həmçinin, mətbuatın, məcazi mənada, “4-cü hakimiyyət” adlanması məsələlərindən məlumatlı idi və onillər boyu KİV nümayəndələri ilə canlı ünsiyyətdə olan Böyük Lider öz dövlət quruculuğu siyasətində bu sahənin sağlam ruhda, hüquqi və demokratik inkişafını tənzimləyən qərarlar qəbul edir və müvafiq Konvensiyalar imzalayırdı.

“4-cü hakimiyyət” - sözün özündən də aydın olduğu kimi, mahiyyətcə hakimiyyətə müxalif sahə kimi dünyanın ən qabaqcıl dövlətlərində, əsasən də, ABŞ-da dövlət strukturlarının fəaliyyətini nəzarətə götürərək, əsl müfəttiş xarakterində çıxış edən mətbuat Heydər Əliyevə görə dövlətə köməkçi nəhəng bir sosial qrum idi və Ulu Öndər bu sahəni daim diqqətdə saxlayır, jurnalistlərin qaldırdığı problemləri çap olunan qəzetləri, yayımlanan verilişləri hər gün izləməklə təhlil edib, vaxtında həll olunmasını reallaşdırırdı.

Heydər Əliyev vələndaş cəmiyyətinin bu əsas sahəsini əsl azad söz meydanına çevirərək, onların rahat işləməsi üçün geniş şəraiti yaradırdı.Təsadüfi deyil ki, müstəqil dövlət kimi ilk addımın atan Azərbaycan Respublikası ilk Konstitutsiyasına 50-ci maddə kimi KİV-in inkişafına bağlı tarixi və həmişə əhəmyyətli olan bir qanunu daxil etdi. Bu qanun 50-ci maddədə belə təsbit olunmuşdur: məlumat azadlığı I. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. II. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən, mətbuatda dövlət senzurası qadağandır. III. Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.” Müstəqil respublikanın dövlət idarəçiliyində, bir tərəfdən, mətbuatın inkişafına, demokratik şüurlu jurnalist ordusunun yetişməsinə təkan verirdi, digər tərəfdən, dövlət hüququnun ciddi əsaslarını şərtləndirirdi.

Konstitusiyamızın verdiyi hüquq və azadlıqları təcrübədə həyata keçirən Heydər Əliyevin elə 1995-ci ildə milli mətbuat tariximiz üçün, öz zamanında olduğu kimi, bu gündən baxanda da, son dərəcə mühüm əhəmiyyətli olan veb-virtual informasiya kanalının Azərbaycanda əsasının qoyulmasına nail olmuşdur.

Əgər nəzərə alsaq ki, internet sözü ilə bərabər veb-virtual şəbəkənin bütün dünyada tətbiqinə 1980-ci ildə start verilib, o, 1985-ci ildə, ABŞ-da ilk dəfə olaraq, sınaqdan çıxıb və 1990-cı illərdən etibarən dünyanın ən qabaqcıl Avropa dövlətlərində istifadəyə verilib, o zaman müqayisədə gənc və kiçik bir dövlət olan müstəqil Azərbaycan Respublikasında 1995-ci ildə yaranması və istifadə olunmasının tarixi hadisə dəyəri və əhəmiyyəti, ən əsas da, dövlətin bu işə xüsusi rəsmi münasibəti aydın olar.

> Heydər Əliyev vələndaş cəmiyyətinin bu əsas sahəsini əsl azad söz meydanına çevirərək, onların rahat işləməsi üçün geniş şəraiti yaradırdı.Təsadüfi deyil ki, müstəqil dövlət kimi ilk addımın atan Azərbaycan Respublikası ilk Konstitutsiyasına 50-ci maddə kimi KİV-in inkişafına bağlı tarixi və həmişə əhəmyyətli olan bir qanunu daxil etdi. Bu qanun 50-ci maddədə belə təsbit olunmuşdur: məlumat azadlığı I. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır. II. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən, mətbuatda dövlət senzurası qadağandır. III. Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.” Müstəqil respublikanın dövlət idarəçiliyində, bir tərəfdən, mətbuatın inkişafına, demokratik şüurlu jurnalist ordusunun yetişməsinə təkan verirdi, digər tərəfdən, dövlət hüququnun ciddi əsaslarını şərtləndirirdi

Heydər Əliyevin Azərbaycan mətbuatına diqqət və qayğısı sovet dövründən mövcud olan və müstəqillik illərində saxlanmış senzura adlanan avtoritar və totalitar rejim basqısını 1998-ci il 6 avqust tarixli xüsusi Sərancamla ləğv etməsi, 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikasının Qanununu, habelə, “2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı”nı təsdiqləməsi, həmçinin, 2003-cü ildə Jurnalistlərin I Qurultayında jurnalistlər tərəfindən qeyri-hökumət təşkilatı olan “Mətbuat Şurası”nın yaradılmasını” dəstəkləməsi və hətta qəzetlərin çapının və s. üzrə böyük miqdarda borclarının dondurulması və digər hüquqi və mənəvi məsələlərin həllində özünü təsdiq edib; aktların qəbulu həyata keçirilib.

Heydər Əliyevin 2002-ci ildə “Jurnalistlərin dostu” mükafatına layiq görülməsi faktı, bir daha təsdiq edir ki, Ulu Öndər, həqiqətən, ölkədə vətəndaş cəmiyyətinin əsas mexanizmi olan, təcrübədə dövlətlə müxalif mövqedə dayanan 18-ci əsrdən indiyə kimi formal da olsa, “4-cü hakimiyyət” adını daşıyan və kütləvi olaraq, bu mahiyyətdə də qəbul edilən KİV-in fəaliyyətini öz dövlət idarəçilik prinsipləri ilə möhkəmlətmiş, ona meydan vermiş və nüfuz qazandırmışdır.

Azərbaycan Respublikasının Konstitusiyanın II - “Əsas hüquqlar. Azadlıqlar və Vəzifələr” bölməsinin 25, 26, 28,29. 36, 47,48,49-cu maddələri, habelə, digər bölmə, fəsil və müddəaları da ölkədə vətəndaş cəmiyyətinin tam olaraq maraqlarını əhatə edirdi.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

## Avropada ən iri zinət əşyaları saxlanılan məşhur muzey qarət olunub



Almaniyanın Drezden şəhərində naməlum şəxslər Avropada ən iri zinət əşyaları kolleksiyasının saxlanıldığı “Yaşıl qübbə” muzeyini qarət ediblər.

Bu barədə Deutsche Welle teleradio kompaniyasının xəbərində deyilir ki, bu barədə polis orqanları məlumat yayıb. “Bild” qəzetinin məlumatına görə, cinayətkarlar əvvəlcə binanın elektrikini kəsib və muzeyə pəncərədən girərək bir sıra qiymətli əşyaları oğurlayıblar. Muzeyə milyon dollardan çox zərər dəydiyi bildirilir.

## Həkimlər: Culian Assanj həbsxanada ölə bilər



60-dan çox həkim “WikiLeaks” saytının qurucusu Culian Assanjın təcili tibbi yardım almayacağı təqdirdə həbsxanada ölə biləcəyi ilə bağlı Böyük Britaniyanın Daxili İşlər naziri Priti Patelə açıq məktub ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, məktubun məzmunu Britaniya KİV-lərində dərc olunub. “Tibbi nəzər nöqtəsinə görə, Culian Assanjın 2020-ci il fevral ayında məhkəmə qarşısına çıxmaq imkanı bizdə ciddi narahatlıq doğurur”, - deyə Sky News telekanalında səsləndirilən məktubda bildirilir. Böyük Britaniya, Avropa, Avstraliya və Şri-Lankadan olan həkimlər Assanjın fiziki və psixoloji vəziyyətinin mütəxəssislər tərəfindən qiymətləndirilməsi üçün onun təcili tibbi mərkəzə köçürülməli olduğunu qeyd edib. “Yardım göstərilməsə, Culian Assanj həbsxanada ölə bilər”, - deyə həkimlər vurğulayıb.

## Yaponiyada xərçəng xəstəliyini 99 faiz dəqiqliklə aşkar edən üsul tapıb



Yaponiyanın “Toshiba” şirkəti qanın tərkibində xərçəng xəstəliyini bir neçə saat ərzində 99 faiz dəqiqliklə aşkar etməyə imkan verən yeni üsul tapıb. Bu barədə şirkətin yaydığı məlumatda bildirilir. Qeyd edilir ki, yeni texnologiya Tokio Tibb Universiteti və Milli Onkoloji Mərkəzi ilə birlikdə hazırlanıb.

Məlumata görə, yeni üsul qan hüceyrələri tərəfindən ayrılan mikro RNK molekullarını ölçməyə imkan verir. Bu zaman mədə, süd vəzi, mədəaltı vəz və digər orqanlardakı 13 növədək xərçəngi müəyyən etmək mümkündür.

Tədqiqatçılar qeyd edirlər ki, yoxlamaların aparıldığı kiçik cihaz xəstəliyi 2 saat ərzində müəyyənləşdirməyə imkan verəcək. Bu, xərçəng xəstəliyinin müayinəsinin dəyərini də xeyli aşağı salmağa şərait yaradacaq. “Toshiba” şirkəti yaxın illərdə yeni texnologiyanın kommersiya əsaslarının yaradılması üçün testlərin davam etdirilməsini planlaşdırır.


### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən Filologiya fakültəsinin ingilis dili ixtisası üzrə 1-ci kurs tələbəsi Qənbərli Məhin Əli qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Dəniz Akademiyasının “Gəmi sürücülüyü” fakültəsinin II kurs tələbəsi Rəhimzadə Raqif Zərxan oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Abşeron rayonu Qurtuluş 93 yaşayış massivində yaşayan Rzayeva Təranə Vidadi qızının adına verilmiş Bağçalı Evlər MTK tərəfindən 7/44 saylı mənzilin maliyyə arayışı və müqaviləsi itdiyi üçün etibarsız sayılır.



# SƏS

Son səhifə 26 noyabr


# Cari ilin on ayında Azərbaycana 2 milyon yarımdan çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib





***Ölkəmizdə tərəqqi və modernləşmənin vəhdət təşkil etdiyi zamanda, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması sahəsində məqsədyönlü işlər görülür. Son illər ərzində, ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar və qəbul edilən dövlət proqramları dövlətin bu sahəyə diqqətini bir daha sübut edir.***

Turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikilib, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olunub və respublikamıza gələn turistlərin sayı artıb. Yeni turizm zonaları yaradılıb. Onu da bildirək ki, ölkəmizin təbii sərvətləri, iqlimi, zəngin mədəniyyəti və tarixi irsi cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm zəmindir. Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatlara malikdir. Bu, hər şeydən əvvəl, ölkəmizin çox əlverişli iqtisadi-coğrafi mövqeyə malik olması ilə bağlıdır.

Son 16 ildə Azərbaycanda turizmdən əldə edilən gəlirlər əhəmiyyətli dərəcədə artıb. Azərbaycanda yol, nəqliyyat və digər infrastrukturun müasirləşdirilməsi turizmin inkişafına yol açıb. Bölgələrdə ən müasir səviyyədə hotellər tikilib. Şimal-qərb zonasında - Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə və ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir.

Ölkəmizin göz oxşayan rahat və müasir magistral yolları əcnəbi turistləri daha çox cəlb edir. Turistlər rahat və təhlükəsiz yollarla - Qubanın Xınalıq kəndinə, İsmayıllının Lahıc qəsəbəsinə, cənub mirvarisi Lənkərana, Qusarın “Şahdağ” Qış-Yay Turizm Kompleksinə, Şəkidəki Kiş Alban məbədinə, Şəki Xan Sarayına, dənizkənarı bulvarı ilə seçilən gözəl təbiətli Astaraya və başqa görməli və səfalı turizm məkanlarına səfər edirlər.

Bu gün görülən işlərin nəticəsidir ki, 2019-cu ilin yanvar-oktyabr aylarında Azərbaycana dünyanın 192 ölkəsindən 2682,4 min və ya 2018-ci ilin yanvar-oktyabr ayları ilə müqayisədə 10,8 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Ölkəmizə gələnlərin 29,8 faizi Rusiya Federasiyası, 22,1 faizi Gürcüstan, 9,8 faizi Türkiyə, 8,2 faizi İran, 3,7 faizi Səudiyyə Ərəbistanı, 2, faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla, Hindistan və Ukrayna, hər birindən 1,7 faiz olmaqla, İraq və Türkmənistan, 1,6 faizi İsrail, 1,5 faizi Qazaxıstan, 1,4 faizi Pakistan, 1,2 faizi Böyük Britaniya, 11,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub.

2019-cu ilin yanvar-oktyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 22,3 faiz artaraq, 121,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 9,2 faiz artaraq, 974,2 min nəfər olub.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 58, faizi dəmir yolu və avtomobil, 41,2 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

Ölkəmizə gələn turistlərin sayının bu şəkildə artması yuxarıda qeyd olunan amillərlə yanaşı, ölkənin yeraltı və yerüstü sərvətlərə malik olmasının da göstəricisidir. Turizmin inkişafı üçün Azərbaycanda kifayət qədər imkanlar mövcuddur və təbii-coğrafi potensialı var. Dünyada mövcud olan 11 iqlimin 9-nun Azərbaycanda olması bu ölkənin turizm üçün əlverişli bir məkan olması haqqında aydın təsəvvür yaradır. Elə bu faktın özü Azərbaycanın beynəlxalq turizm marşrutuna daxil olması üçün kifayət edir. Ölkəmizin dənizi, aranı, dağı, meşələri, çayları, bulaqları, gölləri, yaylaqları turistlərin ölkəmizə cəlb olunması üçün diqqəti çəkən obyektlərdir. Bu sırada ölkəmizin qonaqpərvərliyi, mətbəxi də qeyd olunmalıdır. Göründüyü kimi, Azərbaycanda mövcud olan potensial, ondan səmərəli istifadə, həyata keçirilən layihələr və infrastrukturun qurulması turizmin sürətli inkişafına töhfələr verir və bura gələn turistlərdə zəngin təssürat yaradır.

***Zümrüd BAYRAMOVA***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**